

## “Azərbaycanın ABŞ-la münasibətləri çoxşaxəli xarakter daşıyır”
13

# İLHAM ƏLİYEV:
## “Qlobal Bakı Forumu dünya gündəmində yer alan problemlərin həllinə töhfə verəcək”



4


Səs
№ 106 (6547) 17 iyun 2022-ci il. Qiyməti 60 qəpik


# “Biz dostuq, qardaşıq və rəsmən müttəfiqik!”




Şuşa Bəyannaməsinin birinci ildönümünə həsr olunan beynəlxalq konfrans keçirilib
7

## “Taxılın qiymətinin artması çörəyin qiymətində də bahalaşmaya səbəb olacaq”


13

## “Bakı ilə sülh sazişi Paşinyan üçün ölüm-qalım məsələsidir”


14

## Əmək kitabçalarının dövriyyədən çıxarılması nələrə səbəb ola bilər?



13

## 17 İyun Səhiyyə İşçiləri Günüdür

Sağlamlığımızın qorunması hər zaman olduğu kimi, bu gün də ən vacib məsələlərdən...
14

## Poqba: “Mançester Yunayted”ə səhv etdiyini göstərəcəyəm”


16


16

## Paraüzgüçümüz dünya çempionu oldu!

# Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir

## Prezident İlham Əliyev Türkiyənin sabiq Baş naziri Binəli Yıldırımı qəbul edib

**Prezident İlham Əliyev dünən Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul edib. Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.**

Binəli Yıldırım Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirib, bu tədbirin yüksək səviyyədə keçirilməsi münasibətilə təbriklərini çatdırıb. Qonaq Forumun dünya miqyasında ən mühüm tədbirlərdən biri olduğunu bildirib və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Forum iştirakçılarına müraciətini çatdırdığını məmnunluqla qeyd edib.

Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə ötən gün Şuşada beynəlxalq konfransının keçirilməsinin önəmini vurğulayan Binəli Yıldırım həmin tədbirdə də vacib müzakirələrin aparıldığını deyib. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Bosniya və Herseqovina Azərbaycanla tərəfdaşlığa böyük önəm verir

## *Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri ilə görüşüb*



**Prezident İlham Əliyev dünən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç ilə görüşüb. Görüşdə Prezident İlham Əliyev ölkəmizə səfər etdiyinə və IX Qlobal Bakı Forumunda iştirakına görə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə təşəkkürünü bildirdi, onunla əvvəlki görüşlərini xatırladı. Dövlətimizin başçısı həmin görüşlərdə ikitərəfli və regional məsələlərə dair geniş fikir mübadilələrinin aparıldığını qeyd etdi.**

Prezident İlham Əliyev torpaqlarımızın işğalı zamanı və İkinci Qarabağ müharibəsi dövründə Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünün bərpasına göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi. Azərbaycan Prezidenti COVID-19 pandemiyasından sonra formalaşmış şəraitdə əlaqələrin inkişafı üçün daha yaxşı imkanların yarandığını qeyd etdi.

Dövlətimizin başçısı Bosniya və Herseqovinanın nümayəndələrinin Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclaslarında iştirakını xatırladı və enerji sahəsində ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirdi, forumun artıq dünyada nüfuzlu tədbirlərdən birinə çevrildiyini qeyd etdi. Dövlətimizin başçısının nitqini diqqətlə izlədiyini deyən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Prezident İlham Əliyevin vacib məqamlara toxunduğunu vurğuladı. Bildirdi ki, ədalət və beynəlxalq hüquq həmişə Azərbaycanın tərəfində olub. Azərbaycan ilə Bosniya və Herseqovinanı qardaşlıq əlaqələrinin birləşdirdiyini vurğulan Şefik Caferoviç münasibətlərimizin xalqlarımızın iradəsindən irəli gələrək inkişaf etdiyini məmnunluqla bildirdi. Pandemiya dövründə Azərbaycanın Bosniya və Herseqovinaya yardımına görə minnətdarlığını ifadə etdi.



### Hikmət Hacıyev: "Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi pandemiya ilə mübarizədə əsl nümunə göstərdi"

Azərbaycan müstəqillik qazandıqdan sonra beynəlxalq təsisatlara, onların fəaliyyətinə çox inanırdı. Təəssüf ki, bu, belə olmadı. Azərbaycana hərbi təcavüz edildi və Ermənistan tərəfindən işğal nəticəsində ölkəmiz öz torpaqlarını itirdi. ATƏT-in, BMT-nin üzvü olduğu halda Azərbaycan işğala məruz qaldı. Heç bir təşkilat və qurum Ermənistanı təcavüzkar adlandırmadı. Azərbaycan BMT-nin 4 qətnaməsini öz gücü hesabına yerinə yetirdi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev IX Qlobal Bakı Humanitar Forumu çərçivəsində keçirilən "Qlobal təhlükəsizliyin inşası və sülh üçün perspektivlər" mövzusunda panel iclasda söyləyib.

Hikmət Hacıyev bildirib ki, yalnız üç ölkə - Türkiyə, Pakistan və Səudiyyə Ərəbistanı Krallığı Ermənistanla heç bir əlaqə qurmadı. Prezidentin köməkçisi vurğulayıb ki, çoxtərəflilik yenidən inkişaf etdirilməlidir. BMT-nin Nizamnaməsi yenidən işlənib hazırlanmalıdır.

"Qoşulmama Hərəkatını təsis edənlərə öz minnətdarlığımızı bildiririk. Azərbaycan bu qurumun sədri kimi COVID-19 pandemiyası ilə mübarizədə əsl nümunə göstərdi", - deyə H.Hacıyev qeyd edib.

# “Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət çox yaxşıdır”

*Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunu qəbul edib*

**Prezident İlham Əliyev iyunun 16-da Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib. Görüşdə dövlətimizin başçısı Azərbaycana səfərinə və Qlobal Bakı Forumunda iştirak etdiyinə görə Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoruna təşəkkürünü bildirib, eyni zamanda COVID-19-a qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycana verdiyi tövsiyələrin və ölkəmizlə əməkdaşlığın yüksək qiymətləndirildiyini qeyd edib.**

Tedros Adhanom Qebreyesus Azərbaycana səfərindən məmnunluğunu bildirib və COVID-19-a qarşı uğurlu mübarizənin aparılmasına, ölkəmizin bu sahədə milli, regional və beynəlxalq səviyyədə həyata keçirdiyi fəaliyyətə görə təbriklərini çatdırıb, eyni zamanda, pandemiya dövründə Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına verdiyi könüllü maliyyə töhfələrinə və dəstəyinə görə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı Azərbaycanda COVID-19 ilə bağlı vəziyyətin çox yaxşı olduğunu, yoluxma sayının ən aşağı səviyyəyə düşdüyünü, vəziyyətin tam nəzarətdə saxlanıldığını, əksər məhdudiyyətlərin aradan qaldırıldığını və normal həyata qayıdıldığını qeyd edib. Azərbaycan Prezidenti COVID-19-a qarşı mübarizə aparılmasına dair dövlətimizin siyasətinin vətəndaşlar tərəfindən böyük etimadla qarşılandığını və əhalinin pandemiya ilə mübarizə qaydalarına riayət



etməsini məmnunluqla bildirib. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərimizdə səhiyyə infrastrukturunun qurulması layihələri ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın vacibliyini qeyd edib.

# “Albaniya və Azərbaycan xalqları qardaş xalqlardır”

*Azərbaycan Prezidenti İlham Əliyev Albaniya Prezidenti İlir Meta ilə görüşüb*



***Prezident İlham Əliyev iyunun 16-da Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşüb. Görüşdə Albaniya Prezidenti Bakı şəhərində inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirib və son səfərindən keçən dövrdə Azərbaycan paytaxtının daha da gözəlləşdiyinin şahidi olduqlarını deyib.***

Prezident İlham Əliyevə və Azərbaycan xalqına yeni uğurlar arzulayan Albaniya dövlətinin başçısı TAP layihəsinin müvəffəqiyyətlə başa çatdırılması ilə əlaqədar Azərbaycan Prezidentinə təşəkkürünü bildirib. Albaniya və Azərbaycan xalqlarının qardaş xalqlar olduğunu deyən İlir Meta gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd ediləcəyini məmnunluqla bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev IX Qlobal Bakı Forumunda iştirakına görə Albaniya Prezidenti İlir Metaya təşəkkürünü bildirib. Dövlətimizin başçısı Albaniyanın həmişə olduğu kimi, İkinci Qarabağ müharibəsində də Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyi yüksək qiymətləndirdi və vurğuladı ki, bu, Albaniyanın Azərbaycan üçün dost və qardaş ölkə olduğunu bir daha göstərir.

İşğaldan azad edilmiş ərazilərimizdə dağıntıların miqyasının çox böyük olduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, xarici jurnalistlər, siyasətçilər və digər rəsmi şəxslər həmin ərazilərə səfər edərək bunun şahidi olurlar. Azərbaycanın mina problemi ilə üzləşdiyini deyən dövlətimizin başçısı indiyədək 220-dən çox şəxsin mina hadisələri nəticəsində həlak olduğunu və ya xəsarət aldığını vurğuladı.

Söhbət zamanı iqtisadi, ticarət, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

# Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşüb



**Dünən Prezident İlham Əliyev Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşüb. Görüşdə Prezident Salome Zurabişvili IX Qlobal Bakı Forumunun uğurla keçirilməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.**

Söhbət zamanı regional əməkdaşlıq və ikitərəfli gündəlikdə duran məsələlər barədə fikir mübadiləsi aparıldı. Həmçinin nəqliyyat, enerji məsələlərinə toxunuldu, tranzit sahəsində yeni imkanların yaradıldığı qeyd edildi.

# İLHAM ƏLİYEV:

## “Qlobal Bakı Forumu dünya gündəmində yer alan problemlərin həllinə töhfə verəcək”

"Qlobal dünya nizamına təhdidlər" mövzusunda növbəti Qlobal Bakı Forumu işə başlayıb






“30 illik işğal dövründə Ermənistan xalqı xoşbəxt deyildi”

“Zəngəzur dəhlizinin açılması ilə bağlı bəndlərin yerinə yetirilməsi regionda sülh və əmin-amanlığın bərqərar olmasının təməl sütunudur”

Azərbaycan yenə də növbəti beynəlxalq tədbirə evsahibliyi etdi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyunun 16-da ”Qlobal dünya nizamına təhdidlər” mövzusunda IX Qlobal Bakı Forumu keçirilib. Forumda 53 ölkədən 400-ə qədər nümayəndənin, o cümlədən dövlət və hökumət başçılarının, sabiq dövlət və hökumət başçılarının, gənc liderləri iştirak edib. IX Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin sözü dövlətimizin başçısına verib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da ”Qlobal dünya nizamına təhdidlər” mövzusunda Bakıda işə başlayan Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bildirib ki, forumda qlobal gündəmi təşkil edən prioritet mövzularla bağlı müzakirələr aparılacaq, yeni yanaşmalar işlənib hazırlanacaq: ”Qlobal Bakı Forumunda aparılacaq müzakirələr və fikir mübadilələri dünya gündəmində yer alan ən mühüm problemlərin araşdırılmasına və həllinə töhfə verəcək”.Dövlət başçısı həmçinin bildirib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran beynəlxalq mərkəzə çevrilib.

### “ZƏNGƏZUR DƏHLİZİ İLƏ BAĞLI BƏNDLƏRİN YERİNƏ YETİRİLMƏSİ REGİONDA SÜLH VƏ ƏMİN-AMANLIĞIN TƏMƏL SÜTUNUDUR”

Dövlət başçısı çıxışı zamanı bildirib ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı bəndlərin yerinə yetirilməsi regionda sülh və əmin-amanlığın bərqərar olmasının təməl sütunudur. Dövlətimizin başçısı, həmçinin deyib ki, 30 illik işğal dövründə Ermənistan xalqı xoşbəxt deyildi: ”Əksinə, onlar beynəlxalq ictimaiyyət tərəfindən işğalçı və təcavüzkar kimi tanınırdı. Müharibə bitdikdən sonra hər kəs onların işğal zamanı hansı dağıntıları törətdiklərini gördü”.

### “QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ REGİONDA SÜLHÜN VƏ ƏMİN-AMANLIĞIN BƏRQƏRAR OLMASI ÜÇÜN YENİ İMKANLAR YARADIB”

Prezident İlham Əliyev iyunun 16-da ”Qlobal dünya nizamına təhdidlər” mövzusunda Bakıda işə başlayan Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında deyib ki, Qarabağ münaqişəsinin həlli regionda sülhün və əmin-amanlığın bərqərar olması üçün yeni imkan və fürsətlər yaradıb. Azərbaycanın münaqişədən sonrakı yanaşması barədə Forum iştirakçılarına məlumat verən dövlətimizin başçısı bildirib ki, bu müharibə ədalətin, beynəlxalq hüququn və milli ləyaqətin bərpasına yönəlmişdi: ”Bu, dünyada unikal bir haldır ki, uzunmüddətli münaqişədən sonra bir dövlət işğalçını öz torpaqlarından qovub və ədaləti bərpa edib. Dünyada belə hallara heç də çox rast gəlinmir. Biz niyə sülh istəyirik?! Çünki biz sabit, dayanıqlı və inkişaf regionu yaratmaq istəyirik”.

### “DÜNYANI DAHA TƏHLÜKƏSİZ ETMƏK ÜÇÜN BİZ HAMIMIZ BİRLİKDƏ İŞLƏMƏLİYİK”

”Qlobal Bakı Forumu müxtəlif tərəflərin fikirlərini toplayan inklüziv və yaxşı platformadır, bu, belə də olmalıdır. Çünki dünyanı daha təhlükəsiz etmək üçün biz hamımız birlikdə işləməliyik”,- deyən Azərbaycan Prezidenti vurğulayıb ki, eyni zamanda, gündəlikdəki məsələlərdən biri ərzaq böhranı ilə mübarizədə aparıcı beynəlxalq institutların, aparıcı maliyyə institutlarının rolunun nədən ibarət olmasıdır: ”Çünki böhran qaçılmazdır və artıq yaxındadır. Beynəlxalq təşkilatlar və ölkələr ərzaq böhranının nəticəsi olacaq miqrantların potensial artımı ilə bağlı vəziyyəti diqqətdə saxlamalıdırlar”.

### “AZƏRBAYCANIN ENERJİ EHTİYATLARINA TƏLƏBAT ARTMAQDADIR”

”Azərbaycanın enerji ehtiyatlarına tələbat artmaqdadır. Bu ilin fevralında Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasını keçirdik və gələcək addımları planlaşdırmağa çalışdıq. Lakin Avropadakı vəziyyət köklü şəkildə dəyişib. Odur ki, Azərbaycanın karbohidrogen resurslarına ehtiyac artıb”. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ”Qlobal dünya nizamına təhdidlər” mövzusunda Bakıda işə başlayan Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında deyib. ”Son aylar ərzində biz bir neçə Avropa ölkəsindən qaz təchizatı ilə bağlı müraciət almışıq. Biz onların ehtiyaclarını qarşılamağa çalışmalıyıq. Əlbəttə, problemin həlli o qədər də asan deyil. Biz qaz istehsalını artırmalıyıq. Hazırda bu məsələ ilə bağlı Avropa Komissiyası ilə əməkdaşlıq edirik”, - deyə Azərbaycan Prezidenti qeyd edib.

Ardı Səh. 5

# İLHAM ƏLİYEV:

## "Qlobal Bakı Forumu dünya gündəmində yer alan problemlərin həllinə töhfə verəcək"

### "Qlobal dünya nizamına təhdidlər" mövzusunda növbəti Qlobal Bakı Forumu işə başlayıb




Əvvəli Səh.4

#### "İNDİ CƏNUBİ QAFQAZDA SÜLHÜ BƏRQƏRAR ETMƏK VƏ ƏMƏKDAŞLIQ QURMAQ VAXTIDIR"

Azərbaycan Prezidenti çıxışı zamanı bildirib ki, indi Cənubi Qafqazda sülhü bərqərar etmək və əməkdaşlıq qurmaq vaxtıdır. Azərbaycan bunun üzərində işləyir.Ermənistanla münasibətlərin normallaşdırılması prosesindən danışan Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan tərəfi sülh sazişi üzərində işə başlamaq təklifi irəli sürüb: "Ermənistan buna cavab vermədi. Sonra biz daha bir addım




atdıq. Biz beynəlxalq hüququn beş əsas prinsipini, o cümlədən hər iki ölkənin ərazi bütövlüyünün tanınmasını, həmçinin indi və gələcəkdə qarşılıqlı olaraq hər hansı ərazi iddialarından çəkinmək təklifini irəli sürdük". "Ermənistanla münasibətlərin normallaşdırılması üçün bizim irəli sürdüyümüz təkliflərə ölkələrin bir-birinin sərhədlərinə qarşılıqlı hörmət də daxildir. Biz şadıq ki, Ermənistan hökuməti bu beş prinsipi qəbul etdi",- deyən dövlət başçısı bildirib ki, indi biz bu proseslə əlaqədar praktiki işlər görməliyik: "Çünki tarixdən də bilirik ki, bəzən hətta Ermənistanın yüksək səviyyəli rəsmilərinin verdiyi bəyanatlar böyük əhəmiyyətə malik olmur. Azərbaycan artıq sərhədin delimitasiyası ilə bağlı komissiya yaradıb. Biz Ermənistandan da eyni addımı gözləyirik".

#### "AZƏRBAYCAN QARABAĞ MÜNAQİŞƏSİNİ HƏLL EDİB VƏ ARTIQ MİNSK QRUPUNA EHTİYAC QALMAYIB"




Prezident İlham Əliyev Forumda çıxışı zamanı ATƏT-dən mandat alan Minsk qrupu 28 il ərzində heç bir nəticə əldə etmədiyini və buna görə Azərbaycan Qarabağ münaqişəsini həll etdikdən sonra artıq Minsk qrupuna ehtiyac qalmadığını deyib. Dövlətimizin başçısı qeyd edib ki, xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra Minsk qrupunun üç həmsədrinin bir araya gəlməsinin mümkün olmadığını hamı anlayır. Biz artıq bu mesajları almışıq ki, Minsk qrupunun həmsədr institutu fəaliyyət göstərməyəcək. Artıq onların pensiya vaxtıdır: "Beləliklə, mən öz mövqeyimizi bildirmək istəyirəm ki, Ermənistanda və ya hər hansı başqa ölkədə Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya Azərbaycanda yalnız qıcıq doğurur. Biz münaqişəni həll etmişik. Minsk qrupu tərəfindən işlənib hazırlanmış Madrid prinsipləri həll olu-




nub. İndi biz Ermənistanla münasibətləri normallaşdırmağın yolları barədə düşünməliyik, sülh müqaviləsi imzalamalıyıq".

#### "DÜŞÜNÜRÜK Kİ, ERMƏNİSTAN 10 NOYABR TARİXLİ BƏYANATIN MÜDDƏALARINA ƏMƏL EDƏCƏK"

"Düşünürük ki, Ermənistan 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına, o cümlədən kommunikasiyaların açılmasına əməl edəcək. Təəssüf ki, Ermənistan kapitulyasiya aktına imza atmasına baxmayaraq, bir il yarımdan çoxdur heç nə dəyişməyib. Bu, qəbuledilməzdir",- deyən dövlətimizin başçısı vurğulayıb ki, əvvəla, bu, regionda disbalans yaradır: "Çünki həmin Bəyanatın əsasında Azərbaycan Qarabağın ermənilər yaşayan hissəsindən Ermənistana keçidi təmin edib. Bir il yarımdır ermənilər bu yollardan istifadə edirlər. Lakin azərbaycanlılar bizi Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizindən, Ermənistandan keçən yoldan istifadə edə bilmirlər. Bu, ədalətli deyil və biz bununla razılaşmayacağıq". Qeyd edək ki, Forumda Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa, Albaniyanın Prezidenti İlir Meta, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviç, Gürcüstan Prezidenti Salome Zurabişvili, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, Türkiyənin sabiq Baş naziri Binəli Yıldırım, BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, Ərəb Dövlətləri Liqasının baş katibi Əhməd Abul Qeyt və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin çıxış ediblər. Qeyd edək ki, iyunun 18-dək davam edəcək Forumda qlobal dünya nizamını təhdid edən mühüm problemlər, o cümlədən dünyada təhlükəsizliyin və sülhün təmin olunması üçün perspektivlər, enerji təhlükəsizliyinə yaranan tədidlərin həlli yolları, həssas bölgələrdə sülh, əməkdaşlıq və inteqrasiya, qloballaşan dünyada artan ədalətsizliklər, yoxsulluğun qarşısının alınması üçün qida və kənd təsərrüfatı sektorunun transformasiyası kimi mühüm mövzularda səmərəli müzakirələr aparılacaq.

***RƏFİQƏ HÜSEYNOVA***




## Binəli Yıldırım: "Qarabağ Zəfəri Qafqazda və Türk dünyasında yeni mərhələnin başlanğıcıdır"



Otuz il davam edən işğal sona çatıb, qədim Şuşa işğaldan azad olunub. Bu il birinci ildönümünü qəbul etdiyimiz, 2021-ci ildə ölkələrimiz arasında imzalan Şuşa Bəyannaməsi Türk dünyasında birlikdə iş görmənin önünü açan genişmiqyaslı bir sənəddir.

Bunu Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım Şuşa Bəyannaməsinin birinci ildönümünə həsr olunan beynəlxalq konfransda çıxışında söyləyib.

O, iki ölkə arasındakı əlaqələrin maraq üzərində qurulmadığını, bunun qardaşlıq, dostluq əlaqələri olduğunu qeyd edib. Bildirib ki, ümummilli lider Heydər Əliyev "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürk "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə ölkələrimiz arasındakı əlaqələri ən gözəl şəkildə ifadə ediblər.

"İndiyədək Azərbaycan-Ermənistan münaqişəsinə həll tapmaq istəyənlər problemin həlli deyil, səbəbi olmağa davam etdilər. Minsk qrupu münaqişənin diplomatik yollarla həll ediləcəyini desə də, Ermənistan tərəfinin təzyiqi ilə bu problemin həllinin uzadılmasına şərait yaratdılar", - deyə B.Yıldırım qeyd edib.

O diqqətə çatdırıb ki, bu işin diplomatik yolla həll olunmayacağını görən Azərbaycan Prezidenti İlham Əliyevin əks-hücum əmri ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi başlayıb. Müharibədən bir neçə gün əvvəl Azərbaycana səfər etdiyini deyən Binəli Yıldırım Azərbaycanın haqq yolunda olduğunu, Türkiyənin daim Azərbaycanın yanında dayandığını söyləyib.

"Qarabağ Zəfəri, eyni zamanda, Qafqaz regionunda və Türk dünyasında yeni mərhələnin başlanğıcıdır. Türk Dövlətləri Təşkilatı olaraq tarixi İstanbul zirvəsində "Türk Dünyası 2040" vizyonu qəbul edilib. Bununla da, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin arasında nəqliyyat, iqtisadiyyat, təhsil, mədəniyyət, turizm və digər sahələrdə çatışmazlıqların tamamlanması qəbul olunub", - deyə B.Yıldırım bildirib.

## Tahir Budaqov: "Dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə mənəvi və siyasi cəhətdən yaxın ölkələr yoxdur"

"Şuşa İli"ndə, Azərbaycan xalqının ictimai-siyasi yaddaşında mühüm yer tutan, taleyində müstəsna rol oynayan 15 İyun - Milli Qurtuluş Günündə iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümünü qeyd etmək sonsuz qürur və iftixar hissi yaşadır, gələcəyə inamla və ümidlə baxmağa, Zəfər yolunda əminliklə və qətiyyətlə addımlamağa imkan verir.



Bu sözləri Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Şuşa Bəyannaməsinin birinci ildönümünə həsr olunan beynəlxalq konfransda çıxışında söyləyib. "İnkaredilməz həqiqətdir ki, dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə mənəvi və siyasi cəhətdən yaxın ölkələr yoxdur. Milli dəyərlər və tarixi ənənələr üzərində təşəkkül tapmış bu dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətləri bənzəri olmayan birlik və həmrəylik nümunəsidir. Ölkələrimiz arasında münasibətlər istənilən siyasi hadisə, məsələ və prosesin fövqündədir", - deyə T.Budaqov bildirib.

YAP Sədrinin müavini qeyd edib ki, bugünkü reallıqlar ümummilli lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarının real həyatda öz təsdiqini tapmasını əks etdirir.

# Dünyada Azərbaycan-Türkiyə qədər bir-birinə yaxın, qardaş ölkə yoxdur!

*YAP Mərkəzi Aparatında Türkiyə nümayəndə heyəti ilə görüş keçirilib*

**İyunun 16-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizdə səfərdə olan Türkiyə nümayəndə heyətinin üzvləri ilə görüşüb.**



Qonaqları salamlayan Tahir Budaqov Azərbaycan-Türkiyə münasibətlərinin keyfiyyətcə yeni müstəviyə yüksəldiyini bildirib. Bu münasibətlərin hərtərəfli inkişafının hər iki ölkənin prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın yüksək səylərinin nəticəsi olduğunu deyən YAP Sədrinin müavini Azərbaycanla Türkiyə arasında əlaqələrin əhəmiyyətindən danışıb, qarşılıqlı münasibətlərin ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi əsasında inkişaf etdiyini vurğulayıb.



Tahir Budaqovun sözlərinə görə, bu gün iki dövlətin münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Prezidentimiz İlham Əliyevin vurğuladığı kimi, dünyada Azərbaycan-Türkiyə qədər bir-birinə yaxın, qardaş ölkə yoxdur. Biz siyasi partiyalar olaraq dövlət başçılarının qardaşlıq münasibətlərini örnək götürərək əlaqələrimizi daha da gücləndirməyi, inkişaf etdirməyi qarşıya məqsəd qoymuşuq.





YAP Mərkəzi Aparatının rəhbəri iyunun 15-də Şuşa şəhərində Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümünə həsr olunmuş beynəlxalq konfransın keçirilməsinin və tədbirdə Türkiyədən böyük nümayəndə heyətinin iştirakının önəmini vurğulayıb. Azərbaycanla Türkiyənin beynəlxalq müstəvidə də bir-birinə hər zaman ciddi dəstək verdiyini deyən Tahir Budaqov qeyd edib ki, istər 44 günlük Vətən müharibəsi zamanı, istərsə də postmüharibə mərhələsində qardaş Türkiyə Respublikasının Azərbaycan Respublikasına qətiyyətli, birmənalı mənəvi-siyasi dəstək göstərməsi qürurverici haldır. Xalqlarımız və dövlətlərimiz bir daha sübuta yetirdilər ki, dostluq, qardaşlıq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri yeni dünya düzəni üçün parlaq nümunədir.

Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini, Bursa millət vəkili Efkan Ala Azərbaycana, o cümlədən Qarabağın incisi olan Şuşa şəhərinə səfər etməkdən məmnunluğunu ifadə edib. "Azərbaycanda özümüzü evimizdəki kimi hiss edirik", - deyən AK Parti Sədrinin müavini iki ölkənin liderləri tərəfindən imzalanmış Şuşa Bəyannaməsinin Türkiyə-Azərbaycan qardaşlığının zirvəsi olduğunu söyləyib.

Efkan Ala qeyd edib ki, Prezident İlham Əliyevin qətiyyəti, Azərbaycan xalqının cəsarəti ilə yenilməz Azərbaycan Ordusu Qarabağı işğaldan azad etdi. Azərbaycan şanlı Zəfəri ilə bütün region üçün məqbul ola biləcək əməkdaşlıq formatı yaradıb və xoşməramlı mövqeyini bütün dünyaya bəyan edib. Türkiyə bundan sonra da hər zaman Azərbaycanın yanında olacaq.

O, həmçinin AK Parti ilə YAP arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Sonra qarşılıqlı hədiyyələr təqdim edilib. Görüşün sonunda xatirə fotosu çəkdirilib.



# YAP-ın nümayəndələri və Türkiyə nümayəndə heyəti Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər









**İyunun 16-da Azərbaycanda səfərdə olan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabana gələrək, Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, gül dəstələri düzüblər.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi də yad edilib, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri düzərək, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Qonaqlar, həmçinin 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Abidənin önünə əklil və gül dəstələri qoyulub. Türkiyə nümayəndə heyətinin rəhbəri Binəli Yıldırım "Türk şəhidliyi" abidəsinin xatirə kitabına ürək sözlərini yazıb.




# "Biz dostuq, qardaşıq və rəsmən müttəfiqik!"

## Şuşa Bəyannaməsinin birinci ildönümünə həsr olunan beynəlxalq konfrans keçirilib





**İyunun 15-də Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşa şəhərində "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimov, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin birinci müavini, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri, Türkiyə nümayəndə heyətinin rəhbəri Binəli Yıldırım, Türkiyə Respublikasının kənd təsərrüfatı naziri Vahid Kirişçi, Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy, Türkiyə Milliyyətçi Hərəkat Partiyasının (MHP) Baş katibi İsmət Böyükataman, YAP İdarə Heyətinin, Təftiş Komissiyasının, Veteranlar Şurasının və Gənclər Birliyinin nümayəndələri, Azərbaycanda fəaliyyət göstərən 40-a yaxın siyasi partiyanın rəhbərləri və digərləri iştirak ediblər.



Əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib, hər iki ölkənin ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Şuşa Bəyannaməsinin birinci ildönümü ilə bağlı videoçarx nümayiş olunub.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub. (Müraciətin mətni ilə AZƏRTAC-ın saytının "Rəsmi sənədlər" bölməsində tanış ola bilərsiniz).

Konfrans çərçivəsində panel müzakirələr aparılıb. Birinci panel müzakirəsində Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Türkiyə Milliyyətçi Hərəkat Partiyasının Baş katibi İsmət Böyükataman, AK Parti sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala və AK Parti sədrinin birinci müavini Binəli Yıldırım çıxış ediblər.



Panel müzakirəsində çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu gün çoxəsrlik dövlətçilik tariximizin şanlı Zəfər dövrünün mühüm hadisəsinə, daha bir qürur anına, eləcə də Türkiyə-Azərbaycan qardaşlığının sarsılmazlığına və əbədiliyinə növbəti dəfə şahidlik edirik. Xalqımızın milli mübarizə ruhunu, həmrəyliyini, dövlətimizin gücünü əks etdirən Vətən müharibəsində qazanılmış möhtəşəm qələbədən sonra Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhəri müstəsna əhəmiyyətə malik növbəti tədbirə ev sahibliyi edir, dünya isə Azərbaycan-Türkiyə qardaşlığı fonunda tarixi anlara şahid olur. "Şuşa İli"ndə, Azərbaycan xalqının ictimai-siyasi yaddaşında mühüm yer tutan, taleyində müstəsna rol oynayan 15 İyun - Milli Qurtuluş Günündə iki qardaş ölkə arasında Müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümünü qeyd etmək sonsuz qürur və iftixar hissi yaradır, gələcəyə inamla və ümidlə baxmağa, Zəfər yolunda əminliklə və qətiyyətlə addımlamağa imkan verir.

"İnkaredilməz həqiqətdir ki, dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə mənəvi-siyasi cəhətdən yaxın ölkələr yoxdur. Milli dəyərlər və tarixi ənənələr üzərində təşəkkül tapmış bu dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətləri bənzəri olmayan birlik və həmrəylik nümunəsidir. Ölkələrimiz arasında münasibətlər istənilən siyasi hadisə, məsələ və prosesin fövqündədir", - deyə YAP Sədrinin müavini qeyd edib.

Onun sözlərinə görə, bugünkü reallıqlar ümummilli lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarının real həyatda öz təsdiqini tapmasını əks etdirir.

"Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev qeyd edib ki, "İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir. Savaşın son dəqiqəsinə qədər - Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq". Bəli, Azərbaycanın tarixi qələbəsini təmin edən mühüm amillərdən biri qardaş Türkiyənin ölkəmizə qətiyyətli, birmənalı və güclü mənəvi-siyasi dəstək göstərməsidir. İstər 30 ilə yaxın müddət ərzində davam edən münaqişə dövründə, istər 44 günlük Vətən müharibəsi zamanı, istərsə də postmüharibə mərhələsində qardaş Türkiyənin Azərbaycanın yanında olması sevindirici və qürurverici olmaqla yanaşı, ölkələrimizin tarixin mühüm anlarında - taleyüklü məqamlarda birlikdə olduqlarını, çətin və mürəkkəb sınaqlardan əzmlə, ləyaqətlə və şərəflə çıxdıqlarını təsdiqləyir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "ölkələrimiz tarixi sınaqlardan şərəflə və başı uca çıxaraq "Bir millət, iki dövlət" şüarının ruhuna sadiqliyini təsdiq etmiş, onu yaşatmışdır".

Bizim müştərək Qələbəmiz olan Qarabağ Zəfəri təkcə ölkəmizin ərazi bütövlüyünün deyil, eyni zamanda, milli qürurun bərpası, milli mənəviyyatın yenilənməsidir, həmçinin regionda yeni geostrateji reallıqların yaradılması baxımından mühüm əhəmiyyətə malikdir", - deyə Tahir Budaqov diqqətə çatdırıb.

O bildirib ki, ölkələrimiz ortaq siyasi iradə və birgə strateji fəaliyyət əsasında yeni reallıqlar yaratmaqla bölgədə dayanıqlı sülh, etibarlı sabitlik və təhlükəsizlik, o cümlədən çoxşaxəli əməkdaşlıq mühiti formalaşdırıblar.

Ardı Səh. 8

# “Biz dostuq, qardaşıq və rəsmən müttəfiqik!”

## Şuşa Bəyannaməsinin birinci ildönümünə həsr olunan beynəlxalq konfrans keçirilib

Əvvəli Səh. 7

Yeni mərhələdə Azərbaycan və Türkiyənin təşəbbüsləri, o cümlədən kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin açılması bölgədə sülh və təhlükəsizlik mühitinin möhkəmlənməsinə, çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə öz töhfəsini verəcək. İki qardaş ölkə regionda rifah və inkişaf tərəfdarıdır. Birinci ildönümünü qeyd etdiyimiz Şuşa Bəyannaməsinin imzalanması təkcə Azərbaycan və Türkiyə üçün tarixi hadisə deyil, bu, eyni zamanda, yeni reallıqlar fonunda türk dünyası coğrafiyasında inkişafa, təhlükəsizliyə və əməkdaşlığa etibarlı zəmin yaradan amildir.

”Regionun yeni geostrateji reallıqlarını təsdiqləyən sənəd kimi Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib, müttəfiqlik əlaqələrinin keyfiyyətcə yeni səviyyəyə - yeni mərhələyə yüksəlməsini təmin edib. Müzəffər Ali Baş Komandanımızın dediyi kimi, ”biz dostuq, qardaşıq və rəsmən müttəfiqik”. Şuşa Bəyannaməsinin imzalanmasından sonra görülən işlər iki ölkə arasında siyasi, iqtisadi-ticari, hərbi-strateji, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafına güclü təkan və önəmli töhfədir.











Zəfər dövrünün reallıqları, Azərbaycan-Türkiyə birliyinin, həmrəyliyinin fonunda iki qardaş ölkənin dost partiyaları olan YAP-AK Parti əlaqələri də keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Biz siyasi partiyalar olaraq dövlət başçılarının qardaşlıq münasibətlərini nümunə götürərək dostluq və əməkdaşlıq əlaqələrimizi daha da gücləndirməyi, inkişaf etdirməyi mühüm hədəf və prioritet kimi müəyyənləşdirmişik. Tarixdə ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq Protokolunun imzalanmasından sonra qarşılıqlı münasibətlərin, gələcək əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilib və biz ortaq hədəflərimizin reallaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətimizi ardıcıl olaraq davam etdiririk”, - deyə YAP Sədrinin müavini vurğulayıb.

”Şübhəsiz ki, Azərbaycan və Türkiyə bundan sonra da ortaq hədəflər, milli maraqlar əsasında fəaliyyət göstərəcək, möhkəm həmrəylik və qətiyyətli siyasi iradə nümayiş etdirəcəklər”, - deyən T.Budaqov diqqətə çatdırıb ki, hakim siyasi partiyalar da bu istiqamətdə öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər. Yeni Azərbaycan Partiyası ilə AK Parti tərəfindən təşkil olunan bugünkü konfrans da Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığının bariz nümunəsi, əyani ifadəsi və növbəti nümayişidir.

O bildirib ki, 29 il əvvəl bu gün - 1993-cü il 15 iyun tarixi Azərbaycanın siyasi təqviminə Milli Qurtuluş Günü kimi düşüb. Ümummilli lider Heydər Əliyev Azərbaycanı xaosdan və tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarmaq missiyasını yerinə yetirməyə başlayıb, nəticə xalqımızın Qurtuluşu, dövlətimizin dirçəlişi və inkişafı olub.



”Heydər Əliyev irsi və ideyaları ilə bağlı olan Qurtuluş məfkurəsi bizi tarixi Zəfərə apardı - əzəli və əbədi torpaqlarımız Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının və tərəfdaşlığının gücü sayəsində düşmən əsarətindən Qurtuldu - azadlığa qovuşdu. 15 iyun 2021-ci il tarixində iki qardaş ölkə Şuşa Bəyannaməsini imzalamaqla dünyaya xalqlarımızın iradəsini, dövlətlərimizin gücünü, Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığını nümayiş etdirdilər. Bu əlamətdar və tarixi hadisənin birinci ildönümünü müştərək qələbəmizi siyasi müstəvidə möhkəmləndirərək, yeni nailiyyətlər qazanaraq və yeni zirvələr fəth edərək şərəflə, ləyaqətlə, inamla, əzmlə və qürurla qeyd edirik. Əminliklə söyləmək olar ki, Azərbaycan ilə Türkiyə bundan sonra da bütün platformalarda birlikdə, çiyin-çiyinə addımlamaqla tarix yazacaq, tarixə yeni möhtəşəm uğurlar və qələbələr yazdıracaqlar”, - deyən Tahir Budaqov fikirlərini yekunlaşdırıb.

Sonra Türkiyə Milliyyətçi Hərəkat Partiyasının Baş katibi İsmət Böyükataman çıxış edərək bildirib ki, Şuşa Bəyannaməsinin imzalanması, nəinki Türkiyə və Azərbaycan arasında davam edən sıx tərəfdaşlığın artırılması, həmçinin regionda və türk dünyasında yeni əlaqələrin qurulmasını hədəfləyir. O, bu bəyannamənin hər iki dövlətin öz hüquqları çərçivəsində imzalandığını qeyd edib, iki ölkənin davamlı müttəfiq əlaqələrinin olması baxımından bu bəyannamənin önəmli rol oynadığını diqqətə çatdırıb.

İ.Böyükataman Şuşa Bəyannaməsinin imzalanması və təsdiq olunması ilə Azərbaycan və Türkiyə arasında müttəfiqlik əlaqələrinin başlanıldığının rəsmi olaraq qəbul edildiyini vurğulayıb.

Paneldə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bir il öncə bugünkü tarixdə Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində Şuşa Bəyannaməsinin imzalandığını, bu tarixi sənədin Azərbaycan-Türkiyə qardaşlığının həm siyasi, iqtisadi, hərbi, həm də mənəvi simvolu olduğunu bildirib. Bu bəyannamənin Milli Qurtuluş Günündə, Qars müqaviləsinin yüz illiyində, həm də Şuşa şəhərində bağlanması tarixi həqiqətlərin məntiqi sonluğudur. Şuşa Bəyannaməsi işğaldan azad edilmiş torpaqların məhz Azərbaycanın əzəli tarixi ərazisi olduğunun birmənalı təsdiqi, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün toxunulmazlığına böyük mənəvi-siyasi dəstəyin ifadəsidir.

”Heydər Əliyevin sağlam təməllər üzərində qurduğu siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərin ardından Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq tapşırıqları və şəxsi nəzarəti altında işğaldan azad olunmuş ərzailərimizdə dərhal başladılan bərpa və quruculuq işlərinə türk şirkətlərinin misilsiz töhfəsi olub və bu gün də qardaş ölkənin şirkətləri Qarabağ və Şərqi Zəngəzurda səmərəli fəaliyyətini davam etdirirlər”, - deyə A.Kərimov qeyd edib.

O, həmçinin hava limanları, yol çəkilişləri, yüksək peşəkarlıq və təcrübə tələb edən tunel tikintiləri və digər bu kimi layihələrdə Türkiyə şirkətlərinin səmərəli fəaliyyətinin işğaldan azad edilmiş ərazilərdə görülən işlərin sürətlə həyata keçirilməsinə zəmin yaratdığını da diqqətə çatdırıb.

Panel müzakirəsində çıxış edən AK Parti sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala bu il Türkiyə və Azərbaycanın diplomatik əlaqələrin 30-cu ildönümünün qeyd edildiyini, lakin bu əlaqələrin təməlinin 30 il deyil, daha əvvəlki illərdə qoyulduğunu bildirib. O, ölkələrimiz arasındakı əlaqələrin hazırda ən yüksək səviyyədə olduğunu diqqətə çatdırıb. E.Ala iki ölkənin hakim partiyaları arasında davamlı olaraq əlaqələrin inkişaf etdiyini qeyd edib. Bu məqsədlə, Ankarada əməkdaşlıq protokolu imzalanıb, həm Azərbaycanda, həm də Türkiyədə bir sıra səfərlər, görüşlər gerçəkləşdirilib.



O, həmçinin ölkələrimiz arasında diplomatik əlaqələrin gücləndirilməsinin Qafqazda davamlı sülhün təmin edilməsində atılan ən böyük addım olduğunu vurğulayıb.

Daha sonra AK Parti sədrinin birinci müavini Binəli Yıldırım iki ölkə arasındakı əlaqələrin maraq üzərində qurulmadığını, bunun qardaşlıq, dostluq əlaqələri olduğunu qeyd edib. O bildirib ki, ölkələrimiz arasındakı əlaqələri ümummilli lider Heydər Əliyev ”Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir” və böyük öndər Mustafa Kamal Atatürkün ”Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” kəlamları ilə ən gözəl şəkildə ifadə ediblər.

”İndiyədək Ermənistan-Azərbaycan münaqişəsinin həll tapmaq istəyənlər problemin həlli deyil, səbəbi olmağa davam etdilər. Minsk qrupu münaqişənin sözdə diplomatik yollarla həll ediləcəyini desə də, bu problemin həllinin uzadılmasına şərait yaratdılar”, - deyə B.Yıldırım qeyd edib. O diqqətə çatdırıb ki, bu işin diplomatik yolla həll olunmayacağını görən Azərbaycan Prezidenti İlham Əliyevin əks-hücum əmri ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi başlayıb. Müharibədən bir neçə gün əvvəl Azərbaycana səfər etdiyini deyən Binəli Yıldırım Azərbaycanın haqq yolunda olduğunu, Türkiyənin daim Azərbaycanın yanında dayandığını söyləyib.




"Otuz il davam edən işğal sona çatıb, qədim Şuşa işğaldan azad olunub. Bu gün birinci ildönümünü qeyd etdiyimiz, 2021-ci ildə ölkələrimiz arasında imzalan Şuşa Bəyannaməsi türk dünyasında birlikdə iş görmənin önünü açan genişmiqyaslı bir sənəddir. Qarabağ Zəfəri, eyni zamanda, Qafqaz regionunda və türk dünyasında yeni dönəmin başlanğıcıdır. Türk Dövlətləri Təşkilatı olaraq tarixi İstanbul zirvəsində "Türk Dünyası 2040" vizyonu qəbul edilib. Bununla da, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin arasında nəqliyyat, iqtisadiyyat, təhsil, mədəniyyət, turizm və digər sahələrdə əksikliklərin tamamlanması qəbul olunub", - deyə B.Yıldırım diqqətə çatdırıb.

Sonra panel iştirakçıları xatirə şəkli çəkdiriblər.

İkinci panel müzakirəsində Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçi, Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov, Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy, Azərbaycanın mədəniyyət naziri Anar Kərimov, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və Bursa Uludağ Universitetinin professoru, Siyasi, İqtisadi, İctimai Tədqiqatlar Vəqfinin elmi araşdırmaçısı Ferhat Pirinççi çıxış ediblər.

Paneldə çıxış edən Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçi bildirib ki, bu gün Şuşada olmaq onun üçün xüsusi önəm kəsb edir. O qeyd edib ki, bu məkan Şuşa Bəyannaməsinin imzalanması ilə ölkələrimizin qardaşlığının, müttəfiqliyinin simvoluna çevrilib. Nazir işğaldan azad olunan Qarabağ torpaqlarının kənd təsərrüfatı üçün əlverişli hala gətirilməsi mövzusunda Azərbaycanın Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri ilə fəal əməkdaşlıq etdiklərini diqqətə çatdırıb. Bu əməkdaşlıq çərçivəsində minalardan təmizlənmiş ərazilərdə həyata keçirilən birgə tədbirlər haqqında məlumat verib.

Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov çıxış edərək bu günlərdə Zəngilan rayonunun Ağalı kəndində inşa olunan "Ağıllı kənd"in birinci mərhələsinin açılış mərasiminin keçirildiyini bildirib, bütün MDB məkanında ilk olan "Ağıllı kənd"in həm də azad olunmuş ərazilərə Böyük Qayıdışın ilk məntəqəsi olacağını qeyd edib. Yaşıl enerji prinsipi əsasında qurulan bu modern kəndin inşasına bütün dünyada olduğu kimi, qardaş Türkiyədə də böyük maraq var. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyip Ərdoğan, Türkiyədən olan dəyərli həmkarlar, eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin üzvləri dəfələrlə "Ağıllı kənd"in inşası prosesi ilə şəxsən tanış olublar.

Nazir diqqətə çatdırıb ki, müasir şəhərsalma standartları əsasında qurulan "Ağıllı




kənd"də öz doğma yurdlarına qayıdacaq insanlarımız üçün hər cür şərait yaradılıb. Kəndin infrastrukturu ən müasir texnologiyalar və innovativ yeniliklər əsasında qurulub. Sakinlərin dövlət xidmətlərinə çıxışı təmin edilib. İsti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, evlərdə günəş panellərinin quraşdırılması, "ağıllı təhsil" və "ağıllı səhiyyə" xidmətlərinin istifadəyə verilməsi sakinlərin gündəlik həyatda istismar xərclərini azaltmağa, sakinlərin yaşayış səviyyəsini yüksəltməyə imkan verəcək.

O, həmçinin Azərbaycan və Türkiyəni bir-birinə bağlayacaq bu modelin əsasının bu gün bir illiyini qeyd etdiyimiz Şuşa Bəyannaməsində qoyulduğunu vurğulayıb.

Sonra çıxış edən Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan regiona və dünyaya verilən mesajların çox vacib olduğuna inamını bildirib, Azərbaycan Prezidenti İlham Əliyevin liderliyində azadlığa qovuşan Qarabağı yenidən dirçəldən işləri yaxından izlənildiyini qeyd edib.

O, 2023-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı seçilən Şuşada gerçəkləşdiriləcək bərpa işləri də daxil olmaqla hər cür fəaliyyətdə dəstək və kömək göstərməyə hazır olduqlarını diqqətə çatdırıb. "Azərbaycanın incisi olan Şuşanı tarixi görkəminə qovuşdurmaq çox mühümdür" deyən türkiyəli nazirin sözlərinə görə, regionda bərpa işlərinin reallaşdırılması turizm potensialı və imkanlarını da genişləndirəcək.

Azərbaycanın mədəniyyət naziri Anar Kərimov isə çıxışında işğaldan azad edilən ərazilərdə mədəni irsin yenidən bərqərar olunmasında dövlətimiz tərəfindən sistemli tədbirlərin həyata keçirildiyini bildirib. Nazir bu prosesdə qardaş Türkiyənin də dəstək göstərdiyini diqqətə çatdırıb. A.Kərimov qeyd edib ki, Şuşa şəhərinin 2023-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı seçilməsi də türk xalqlarının qədim şəhərimizə verdiyi dəyərin ifadəsidir.

Kino sahəsində də Azərbaycanla Türkiyənin fəal əməkdaşlığa başladığını deyən nazir söyləyib ki, iki ölkənin əməkdaşlığı ilə Vətən müharibəsi ilə bağlı çoxseriyalı filmin çəkilişinə başlanılıb. Həmin filmin bu ilin sonuna tamamlanması nəzərdə tutulur. Digər tədbirlər haqqında da məlumat verən A.Kərimov iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyini əminliklə diqqətə çatdırıb.

Panel müzakirəsində çıxış edən Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyə arasındakı bütün dünya üçün örnək olan qardaşlıq və dostluq münasibətlərinin strateji müstəvidə təsdiqi olduğunu bildirib. O qeyd edib ki, Vətən müharibəsindəki tarixi zəfərin əldə edilməsində və ədalətin bərpa olunmasında qardaş Türkiyənin verdiyi siyasi dəstəyin dəyəri bizim üçün ölçülməzdir.

"Məlum olduğu kimi, 30 illik işğal müddətində çox təəssüf ki, Qarabağın tarixi, mədəniyyəti, dini əhəmiyyətli abidələri, məscidləri və tikililərin böyük bir hissəsi məhv edilib. Turizm əhəmiyyətli şəhərlərimiz dağıdılıb, xarabalığa çevrilib. Ancaq hazırda azad edilmiş torpaqlarda dövlətimiz tərəfindən nəhəng quruculuq işləri aparılır. Bu ərazilərin turizm potensialının bərpa edilməsi üçün xeyli qüvvə səfərbər edilib", - deyə F.Nağıyev diqqətə çatdırıb.

Qarabağın, Şərqi Zəngəzurun bərpasında Türkiyə şirkətlərinin iştirakını xüsusilə vurğulayan sədr Dövlət Turizm Agentliyinin türkiyəli mütəxəssislərlə əməkdaşlıq etdiyini, Agentlik tərəfindən türk əməkdaşlarla birgə ərazilərin turizm potensialının öyrənilməsi və resursların araşdırılması, qiymətləndirilməsi və turizm inkişaf istiqamətləri üzrə təkliflər paketinin hazırlanması kimi işlərin icra olunduğunu bildirib. Qeyd edib ki, ilkin qiymətləndirmələrə əsasən, müalicəvi, dağ-xizək və aktiv turizm növlərinin inkişafı üçün, eləcə də əsaslı turizm infrastrukturunun yaradılması üçün işğaldan azad edilmiş ərazilərdə turizm və rekreasiya zonalarına ayrılacaq ərazilər artıq müəyyənləşdirilib.

Bursa Uludağ Universitetinin professoru, Siyasi, İqtisadi, İctimai Tədqiqatlar Vəqfinin elmi araşdırmaçısı Ferhat Pirinççi çıxış edərək Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümündə bu tarixi şəhərdə olmaqdan böyük iftixar duyduğunu bildirib. F.Pirinçi Füzuli hava limanının 1 il ərzində inşa edilməsini xüsusi vurğulayaraq söyləyib ki, Azərbaycan çox böyük işlərin öhdəsindən gəlir. Onun sözlərinə görə, Vətən müharibəsindən qısa müddət sonra Şuşa bəyannaməsinin imzanması böyük məna daşıyır: "Bəyannamənin həm qlobal, həm də regional önəmi çox böyükdür. Hazırda Şuşanın azad olunmasından 19 ay, Bəyannamənin imzalanmasından isə 12 ay keçir. Ötən dövr ərzində Müttəfiqlik Bəyannaməsinin icrası istiqamətində ölkələrimiz vacib addımlar atmaqdadır. Qarşılıqlı səfərlər, icra olunan müxtəlif layihələr buna sübutdur".

Son 1 ildə Ermənistanın sərgilədiyi davranışlardan söz açan natiq qeyd edib ki, sülhün alternativi yoxdur. Ermənistan bunu anlamalı, regional əməkdaşlıqdan özünü təcrid etməməlidir. "Şuşa Bəyannaməsinin nəticəsi olaraq Azərbaycan və Türkiyə bundan sonra da birgə önəmli addımlar atacaq", - deyə professor vurğulayıb.

Sonra panel iştirakçıları xatirə şəkli çəkdiriblər.

Üçüncü panel müzakirəsində Türkiyənin xarici işlər nazirinin müavini Yavuz Selim Kıran, Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov, Türkiyənin milli müdafiə nazirinin müavini Muhsin Dere, Azərbaycanın müdafiə nazirinin müavini, Quru qoşunlarının komandanı, general-leytenant Ənvər Əfəndiyev, Baxçaşəhər Universitetinin müəllimi, terrorizm və təhlükəsizlik üzrə ekspert Abdullah Ağar və Milli Məclisin üzvü Ramil Həsən çıxış ediblər.

***Ardı Səh. 10***

Əvvəli Səh. 9

Paneldə çıxış edən Türkiyənin xarici işlər nazirinin müavini Yavuz Selim Kıran bildirib ki, müstəqilliyini elan etdikdən sonra Azərbaycanla diplomatik əlaqələr quran ilk ölkə Türkiyə olub. Aradan keçən otuz il ərzində Türkiyə yaxşı gündə də, pis gündə də dostu və qardaşı Azərbaycanın yanında olub. Türkiyə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi ilə torpaqlarını işğaldan azad etməsindən sonra keçirdiyi böyük sevinclə bunu bir daha göstərdi.

Nazir müavini qeyd edib ki, ötən il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə qaldırılan əlaqələrimizi formalaşdıran bu iradə bundan sonra da davam edəcək: "Bu, Cümhuriyyətimizin qurucusu Qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" ifadəsinə, ümummilli lider Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" şüarına yaraşan yanaşmadır. Bu gün əvvəlki illərdən qat-qat güc-






iki dövlətin gələcəyi üçün önəmindən bəhs edib. Vurğulayıb ki, bu Bəyannaməyə imza atan Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan ölkələrimizin gələcək əməkdaşlığının konturlarını müəyyənləşdiriblər.

Sonra çıxış edən Türkiyənin milli müdafiə nazirinin müavini Muhsin Dere Orta Asiyadan Balkanlara qədər uzanan birliyimizin keçmişdən bizlərə qalan miras olduğunu bildirib. O, ölkələrimizin tarix boyu bir-birinə dayaq olduğunu qeyd edib.

O, 44 günlük Vətən müharibəsindən danı-



mübarizədə təcrübəsi Azərbaycan üçün böyük önəm kəsb edir. Azərbaycan ordu modelinin Türkiyə modelinə uyğunlaşdırılması işləri davam edir", - deyə nazir müavini diqqətə çatdırıb.

Ə.Əfəndiyev bildirib ki, hərbi əməkdaşlığın davam etdirilməsi yeni döyüş qabiliyyənin artırılmasında mühüm əhəmiyyət daşıyır. Şuşa Bəyannaməsinə uyğun olaraq azad olunmuş ərazilərin bərpasında da hərbi əməkdaşlığımız mövcuddur. Nazir müavini buna nümunə olaraq Türkiyə ordusunun minatəmizləmə işlərində dəstəyini qeyd edib.

Panel müzakirəsində çıxış edən Baxçaşəhər Universitetinin müəllimi, terrorizm və təhlükəsizlik üzrə ekspert Abdullah Ağar Vətən müharibəsi haqqında düşüncələrini bölüşüb, qəhrəman əsgərlərimizin torpaqlarımızın işğaldan azad olunması uğrunda şücaətindən bəhs edib. O, Türkiyənin ölkəmizin haqq savaşında dəstəyini əsirgəmədiyini, hər zaman ölkəmizin yanında olduğunu vurğulayıb. A.Ağar qeyd edib ki, Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi birliyimizi və gücümüzü daha da qüvvətləndirəcək.

Milli Məclisin deputatı Ramil Həsən çıxış edərək Türkiyə və Azərbaycan əlaqələrinin qədim köklərə malik olduğunu bildirib. Qeyd edib ki, Türkiyə 44 günlük Vətən müharibəsində Azərbaycana siyasi və mənəvi dəstək verib. Günümüzdə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə ölkələrimiz arasındakı münasibətlər özünün ən yüksək zirvəsinə çatıb. Ən böyük sınaqdan keçdiyimiz müharibə

# "Biz dostuq, qardaşıq və rəsmən müttəfiqik!"

## Şuşa Bəyannaməsinin birinci ildönümünə həsr olunan beynəlxalq konfrans keçirilib



lü Türkiyə və daha güclü Azərbaycan var və iki ölkənin qardaşlığı, sıx əməkdaşlığı onların ortaq bölgələrində sülhün və sabitliyin böyük təminatına çevrilib. Biz gələcəyə inamla baxır, ümumi rifah və inkişaf yolunda birgə çalışmaq iradəmizi bir daha təsdiqləyirik".

Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov çıxış edərək qeyd edib ki, bugünki konfrans xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın işğaldan azad olunan torpaqlarının simvolunu Şuşa təşkil edir. Şuşa böyük Zəfərimizin rəmzidir. Çünki Şuşa işğaldan azad edildikdən sonra Ermənistan kapitulyasiyaya imza atmağa məcbur oldu. X.Xələfov qeyd edib ki, Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərinin zirvəsidir. Bu Bəyannaməyə uyğun olaraq iki qardaş ölkənin münasibətləri daha da güclənir.

Nazir müavini Şuşa Bəyannaməsinin hər



şıb, Türkiyə xalqının və ordusunun Azərbaycanın haqq işində yanında olduğunu və bundan sonra da yanında olmağa davam edəcəyini söyləyib.

Azərbaycan-Türkiyə hərbi əməkdaşlığından bəhs edən nazir müavini Şuşa Bəyannaməsində də hərbi əməkdaşlığın genişləndirilməsinin nəzərdə tutulduğunu xüsusi olaraq qeyd edib. M.Dere Azərbaycan və Türkiyə ordularının birgə təlimlərdə iştirak etmələrinin əhəmiyyətini vurğulayıb. Şuşa Bəyannaməsinə uyğun olaraq bu sahədə əməkdaşlığın davam etdiriləcəyini diqqətə çatdırıb.

Paneldə Azərbaycanın müdafiə nazirinin müavini Ənvər Əfəndiyev çıxış edərək bildirib ki, Azərbaycan və Türkiyə rəhbərlərinin imzaladığı Şuşa Bəyanaməsi bütün sahələrdə müttəfiqliyin ən ali göstəricisidir. Vurğulayıb ki, davamlı sülhün təmin edilməsi sahəsində ölkələrimizin təşəbbüsü davam edir.

"Şuşa Bəyannaməsinin 11, 12 və 13-cü bəndlərinə uyğun olaraq, hərbi təlim, təhsil sahələrində əməkdaşlığımız uğurla davam edir.

Dünyanın ən güclü ordularından biri olan Türkiyə Silahlı Qüvvələrinin terrorizmə qarşı



bu qardaşlığın, dostluğun əbədi olduğunun sübutu olub.

Onun sözlərinə görə, Şuşa Bəyannaməsi isə iki ölkənin birliyinin və qardaşlığının təntənəsidir.

Sonda konfrans iştirakçıları xatirə şəkli çəkdiriblər.

**İyunun 16-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, Bursa millət vəkili Efkan Ala birgə mətbuat konfransı keçiriblər.**



# Türkiyə bütün gücü ilə Azərbaycanın yanındadır!

Mətbuat konfransında AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, Bursa millət vəkili Efkan Ala Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümü münasibətilə Azərbaycana səfərinin önəmindən bəhs edib. Şuşa şəhərində bu əlamətdar hadisə ilə bağlı keçirilən beynəlxalq konfransda iştirakdan məmnunluğunu ifadə edən qonaq tarixi türk torpağı olan Şuşanın erməni işğalından azad edilməsinin sevincini bir daha yaşadığını söyləyərək bildirib: "Şuşa erməni işğalında olduğu zaman işğalçı ermənilər Cıdır düzündə rəqs edərkən onlara "sevinməyin" dedik. Qəhrəman Azərbaycan Ordusu Şuşanı azad etdikdən sonra isə ermənilər kədərləndi. Bu dəfə onlara "kədərlənməyin" dedik. Çünki bu torpaq ermənilərin deyil. Şuşaya onun sahibləri qayıtdı. Tarix, mədəniyyət beşiyi olan Şuşada səfərdə olarkən bu düşüncələri bir daha yaşadıq. Qarabağ zəfəri bütün Türkiyəni sevincə qərq etdi. Torpaqların işğaldan azad edilməsində canlarını qurban vermiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyirəm".





Efkan Ala bildirib ki, Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq illər keçdikcə daha da dərinləşib, güclənib. Onun sözlərinə görə, Azərbaycanın Qarabağı işğaldan azad etdiyi 44 günlük müharibə zamanı Türkiyənin həm dövlət, həm də millət olaraq azərbaycanlı qardaşlarımıza verdiyi dəstək və sonrakı əməkdaşlığımız sayəsində Türkiyə-Azərbaycan münasibətləri yeni müstəviyə qədəm qoyub. Bu çərçivədə müharibədən sonrakı dövr ərzində Azərbaycanın azad edilən Qarabağ bölgəsinin abadlaşdırılması, yenidən qurulması yolunda Türkiyə bütün gücü ilə Azərbaycanın yanındadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu mövqeyi dəfələrlə bəyan edib. İndiyə qədər iki qardaş ölkə birgə önəmli layihələr gerçəkləşdirib. Buna nümunə kimi Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini, Bakı-Tbilisi-Qars dəmir yolu xəttini və digər layihələri göstərə bilərik. Eyni zamanda, iki ölkə arasında ticarət dövriyyəsini 5 milyard dollara çatdırmışıq. Amma hədəfimiz bu göstəricini 15 milyard dollara və daha yüksəyə qaldırmaqdır. Partiyalarımızın münasibətlərinə gəlincə, biz ötən il əməkdaşlıq protokolu imzalamışıq və YAP-la AK Parti arasında çox güclü əlaqələr qurulub. Bu münasibətlər iki dövlətin tək milləti olaraq irəliyə doğru addımlamasında təkanverici qüvvə olacaq.







Qonaqları və tədbir iştirakçılarını salamlayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Türkiyənin nümayəndə heyətinin ölkəmizə səfərinin əhəmiyyətini vurğulayıb. Deyib ki, Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümündə gerçəkləşən səfər bir daha iki ölkənin qardaşlığının parlaq nümunəsidir. "İyunun 15-də Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşa şəhərində "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans keçirilməsi və bu konfransda Türkiyədən böyük nümayəndə heyətinin təmsil olunması da qardaşlıq əlaqələrimizin daha bir xüsusi göstəricisidir. Xalqlarımız Türkiyə ilə Azərbaycanı bağlayan birgə mənəvi dəyərləri qoruyaraq daim bir yerdə olublar. Qeyd etdiyim konfrans "Şuşa İli"ndə, 15 İyun - Milli Qurtuluş Günündə və Şuşa Bəyannaməsinin imzalandığı tarixdə gerçəkləşdi. Bu üç tarixi hadisə fonunda belə bir konfransın təşkil olunması həm rəmzi məna daşıyır, həm də birliyimizin növbəti ifadəsidir. Tədbirdə AK Parti Sədrinin birinci müavini, Türk Dövlətləri Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımın başçılıq etdiyi böyük nümayəndə heyətinə Türkiyənin rəsmi şəxsləri, AK Partinin və Milliyyətçi Hərəkat Partiyasının rəhbər şəxsləri, eləcə də elm adamları və digər nüfuzlu şəxslər daxil idi. Mən konfransda iştirak edən Türkiyə nümayəndə heyətinə öz təşəkkürümü bildirirəm. Eyni zamanda, Şuşa Bəyannaməsinin birinci ildönümünə həsr olunmuş beynəlxalq konfransda Azərbaycanda fəaliyyət göstərən 33 siyasi partiyanın sədri iştirak etdi. Bu fakt ölkəmizdə formalaşan yeni siyasi konfiqurasiyanın göstəricisi olmaqla yanaşı, ümummilli məsələlərdə həmrəyliyimizin nümunəsidir", - deyə T.Budaqov qeyd edib.

YAP Sədrinin müavini bu gün regionda və beynəlxalq miqyasda mühüm reallıqlardan birinin Azərbaycan-Türkiyə münasibətləri olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan-Türkiyə bütün dünya üçün örnəkdir. Bu, inkaredilməz bir həqiqətdir. Çünki bu iki dövləti bir-birinə yaxınlaşdıran və bağlayan təkcə güclü strateji tərəfdaşlıq münasibətləri deyil, eyni zamanda, tarixi bağlılığımız, dostluq və qardaşlıq əlaqələridir. Milli dəyərlər və tarixi ənənələr üzərində təşəkkül tapmış bu qardaşlıq münasibətləri bənzəri olmayan birlik və həmrəylik nümunəsidir. Hər iki ölkənin milli maraqlarının, strateji mənafelərinin qorunması üçün bir-birinə güclü dəstək nümayiş etdirməsi isə bu baxımdan xüsusi vurğulanmalıdır.

"Təqdirəlayiq haldır ki, postmüharibə dövründə də dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətt üzrə inkişaf edir, iki qardaş ölkənin birgə təşəbbüsləri regionun yeni geostrateji dizaynında müstəsna rol oynayır. Xüsusilə də ötən il iyunun 15-də Azərbaycan ilə Türkiyə arasında müttəfiqliyə dair Şuşa Bəyannaməsinin imzalanması tərəfdaşlıq münasibətlərinin yeni səviyyəyə yüksəlməsini şərtləndirib. Şuşa Bəyannaməsinin imzalanmasından ötən bir il ərzində böyük işlər görülüb və bu, iki ölkə arasında siyasi, iqtisadi-ticari, hərbi-strateji, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafına mühüm töhfədir", - deyən YAP Sədrinin müavini xüsusi vurğulayıb ki, qarşıda dayanan hədəflərə çatmaq üçün prezidentlərimiz İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi ortadadır.

Qeyd olunub ki, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında iki ölkənin hakim partiyası olan Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının daimi təmaslarının, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin böyük rolu var. "Əminliklə söyləmək olar ki, partiyalarımız arasında əlaqələr keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Ötən ilin iyun ayında YAP və AK Parti arasında Əməkdaşlıq Protokolu imzalanıb. Əməkdaşlıq Protokolunun imzalanmasından sonra qarşılıqlı münasibətlərin, gələcək əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilib və biz ortaq hədəflərimizin reallaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətimizi ardıcıl olaraq davam etdiririk. Eləcə də AK Partinin nümayəndə heyətinin də ölkəmizə səfərlər etməsi əməkdaşlığın inkişafına töhfələr verib. Bunlarla yanaşı, hər iki partiyanın birgə təşkilatçılığı ilə konfransların keçirilməsi Azərbaycan ilə Türkiyənin milli maraqlarına dair məsələlərdə faydalı və əhəmiyyətli, müzakirələrin aparılması, təmasların sıxlaşdırılması və münasibətlərin inkişafı baxımından çox önəmlidir. Bu tədbirlər bir millət, iki dövlət olan Azərbaycan ilə Türkiyənin mənəvi-siyasi birliyinin daha da gücləndirib. Şübhəsiz ki, siyasi partiyalar olaraq dövlət başçılarının qardaşlıq münasibətlərini, Azərbaycan ilə Türkiyə arasında sarsılmaz strateji müttəfiqliyi əsas və ör-



nək götürərək əlaqələrimizi daha da gücləndirəcək, səmərəli, faydalı və məqsədyönlü birgə fəaliyyətimizi uğurla davam etdirəcəyik", - deyə Tahir Budaqov vurğulayıb.

Daha sonra jurnalistlərin sualları cavablandırılıb. Şuşa Bəyannaməsinin imzalanmasından ötən bir il ərzində görülən işləri dəyərləndirən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala bildirib ki, iki ölkə liderinin imzaladığı Şuşa Bəyannaməsindən sonra ölkələrimiz arasındakı münasibətlərdə yeni dövr başladığı kimi, Qafqazda da yeni sülh perspektivi meydana gəlib. Yəni, bu sənəd təkcə Azərbaycanla Türkiyə üçün yox, bütün region üçün faydalıdır. Uzun zaman davam edən işğala son qoyulması və beynəlxalq hüquqdan irəli gələrək Azərbaycanın Qarabağı işğaldan azad etmək istiqamətində keçirdiyi əməliyyat Zəfərlə nəticələndikdən sonra yeni dövrün başladığını hamımız görürük. Bu dövrün bundan sonrakı əsası Qafqazda sülhün bərqərar olmasıdır. Bu addımın atıla bilməsi üçün Türkiyə ilə Azərbaycan önəmli təşəbbüslərlə çıxış edir. Eyni zamanda, bölgədə, həm Ermənistan, həm Gürcüstan, həm Rusiya, həm də İranla bütün sahələrdə əməkdaşlıq üçün yaxşı format təklif edilib. Türkiyə Ermənistanla münasibətlərin normallaşdırılması prosesində Azərbaycanla əməkdaşlıq çərçivəsində hərəkət edir. Çünki hər kəs bilir ki, Azərbaycanın "yox" deyəcəyi işə biz də əvvəldən yox demişik, "hə" deyəcəyi işlərə də "hə" demişik. Bunun üçüncü variantı yoxdur. Biz heç kimin zərər çəkəcəyi siyasət aparmırıq, hər kəsin faydalanacağı birlik içərisindəyik.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov isə "Bu il Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü münasibətilə YAP və AK Partinin birgə layihələrinin həyata keçirilməsi nəzərdə tutulurmu" sualına cavab olaraq bildirib ki, bu əlamətdar hadisə ilə bağlı müxtəlif tədbirlər keçiriləcək. Həmin tədbirlərdə Türkiyədən, o cümlədən AK Partidən böyük nümayəndə heyətinin iştirak edəcəyini gözləyirik. Eyni zamanda, beynəlxalq müstəvidə birgə fəaliyyət göstərməyimiz də sıx əməkdaşlığımızın nümunəsidir. Birgə layihələrimiz bununla yekunlaşmır. Həmçinin, bu il biz digər ölkələrin, xüsusilə türk dövlətlərinin siyasi partiyaları ilə əlaqələri gücləndirmək istiqamətində yeni addımlar atmağı nəzərdə tuturuq. Bütövlükdə, ulu öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinin yüksək səviyyədə keçirilməsi üçün üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacağıq.

# "Şuşada keçirilən beynəlxalq konfrans dünyaya bir mesaj idi"

## PARTİYA FUNKSİONERLƏRİ DANIŞDI

***15 İyun 2022-ci il tarixində Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşa şəhərində "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransda Yeni Azərbaycan Partiyasının nümayəndələri ilə yanaşı həmçinin digər siyasi partiyaların nümayəndələri də iştirak etdi.***

SİA partiya nümayəndələrinin konfransla bağlı fikirlərini öyrənməyə çalışıb:

**Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Musa Quliyev:** "15 iyun tarixində Şuşada YAP və qardaş Türkiyənin iqtidar partiyası olan Ədalət və İnkişaf Partiyasının birgə təşkil etdiyi Şuşa bəyannaməsinin ildönümünə həsr olunmuş konfrans yüksək səviyyədə keçdi. Konfrans iştirakçısı kimi deyə bilərəm ki, mən ölkəmin və ölkəmin rəhbərinin adından qürur duydum. Konfrans yüksək səviyyədə təşkil olunmuşdu və burada 3 panel çıxış oldu. Çıxışlarda olduqca ciddi məsələlərə, regionda sülhün əməkdaşlığın inkişaf etməsinə, tərəqqi, sosial inkişaf və ölkələrarası münasibətlərin daha yüksək müstəviyə qaldırılması istiqamətində görüləcək işlər və perspektivlər, bütövlükdə türk dünyası ölkələri arasında humanitar-mədəni əlaqələrin, tarixi münasibətlərin daha yüksək səviyyəyə qaldırılması üçün təkliflər verildi.



Turizm, kənd təsərrüfatı, müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi və yeni platformada təqdimatı istiqamətində çox maraqlı müzakirələr oldu. Konfransın ümumi qətnaməsi və gəldiyi nəticə bundan ibarət oldu ki, Azərbaycan və Türkiyə bölgənin aparıcı dövlətidir və bu iki ölkənin təşəbbüsü ilə bütövlükdə Cənubi Qafqaz bölgəsi, eyni zamanda Xəzər və Qara dəniz hövzəsi ətrafındakı ərazilərdə yerləşən dövlətlər arasındakı münasibətlər daha sıx inteqrasiya olunmalıdır. Azərbaycan və Türkiyə şərq-qərb Qədim İpək yolunun aparıcı bir halqası olaraq bundan sonra da dünya birliyinə inkişaf, sülh və qardaşlıq töhfəsini verəcəkdir.

Eyni zamanda bu konfrans Şuşa bəyannaməsinə bir daha tarixi qiymət verdi və qeyd etdi ki, Bəyannamə sadəcə Azərbaycan və Türkiyə üçün deyil, gələcək perspektivdə Böyük Türk Birliyinin qurulması üçün çox vacib bir sənəddir. Burada həm ölkələrin əmin-amanlığı, asayişin qorunması, iqtisadi əməkdaşlıq, mədəni əlaqələrin yüksək platformaya qaldırılması məsələləri və bütövlükdə bölgənin inkişafına töhfə vermək üçün lazım olan siyasi-hüquqi bünövrənin qoyulması çox vacibdir. Ötən bir il ərzində həm Qarabağda, həm bu bütövlükdə regionda görülən işlər, aparılan siyasət bu məqsədə xidmət etmiş oldu.

Eyni zamanda tədbirin Şuşada keçirilməsi, Şuşanın təkcə Azərbaycan üçün deyil, bölgə və türk dünyası üçün tarixi əhəmiyyətli olduğunu dünyaya bir daha bəyan etmiş oldu.

Konfrans iştirakçılarına cənab Prezident İlham Əliyevin göndərdiyi təbrik məktubu da bu konfransa daha yüksək qiymət verilməsinin ifadəsi idi. Təbrik məktubunda dostluq və qardaşlığımızın əbədi olması istiqamətində gərəkən addımların atılmasının vacibliyi vurğulanmışdı. Konfrans iştirakçıları buradan xoş təəssüratlarla ayrıldılar. Bu xoş təəssüratımıza rəng qatan Şuşanın xoş təbiəti və Şuşanın əbədi-əzəli sakinlərinə qaytarılmasından doğan fəxarət hissi idi".

**Vəhdət Partiyasının qurucusu və sədri, Milli Məclisin deputatı Tahir Kərimli:** "Bildiyimiz kimi Şuşada "Azərbaycan - Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans keçirilib. Vəhdət Partiyasının sədri kimi mən də bu konfransda iştirak etdim. Konfrans yüksək səviyyədə keçirildi. Eyni zamanda Qazaxıstan, Özbəkistan, Qırğızıstan dövlətlərinin səfirləri də bu konfransda iştirak edirdi. Konfransın mahiyyəti ondan ibarətdir ki, məhz Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında bağlanmış bəyannamə Qafqazda sülh və sabitliyin mənbəyidir. Azərbaycan tərəfi bölgədə sülh və sabitliyin olmasında maraqlıdır. Azərbaycan və Türkiyənin strateji müttəqifliyi Şuşa bəyannaməsi ilə daha yüksək səviyyəyə çıxdı. Azərbaycan və Türkiyə həmişə bir-birinə qarşı dost və qardaş olublar. Amma bu bəyannamə ilə bu qardaşlıq dostluq münasibətləri rəsmi, hüquqi səviyyəyə qalxdı. Türkiyə ilə Azərbaycan təkcə bir millət, iki dövlət deyil, eyni zamanda iki dövlət bir ordu anlamına gəlir. Tərəflərdən birinə hər hansı bir təcavüz olarsa, Azərbaycan və Türkiyə hərbi qüvvələri vahid bir şəkildə hərəkət edəcəklər.





Konfransda Binəli Yıldırım qeyd etdi ki, 4 milyon kvadrat kilometr ərazidə yerləşən, bir trilyon yarım daxili məhsulu olan və yarım trilyon ticarət əlaqələri olan türk dövlətləri şübhəsiz ki, gələcəkdə birləşməyə hazır olmalıdırlar. Bunun da təməlini əlbəttə ki, heç şübhəsiz Azərbaycan-Türkiyə müttəfiqliyi qoyur".

**Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov:** "Azərbaycan yenə də çox böyük beynəlxalq konfranslara və mötəbər tədbirlərə ev sahibliyi etməklə bir daha dünyanın diqqət mərkəzinə çevrilir. Xüsusən də bu onu göstərir ki, Azərbaycana dünyada böyük bir etimad, inam və hörmət var.



Bu tədbirlər özü bir daha göstərir ki, Azərbaycan həm regionda, həm də dünyada yeni təşəbbüslərlə çıxış edir və bölgənin, regionun sülh və əmin-amanlıq içində yaşaması üçün çox mühüm addımlar atmaqdadır. Eyni zamanda, bu, ölkəmizin mühüm bir aktora çevrildiyindən xəbər verir.

Növbəti belə mötəbər tədbirlərdən biri 15 iyun 2022-ci il tarixdə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində baş tutdu. Şuşa Bəyannaməsinin birinci ildönümünə həsr olunmuş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda keçirilən bu beynəlxalq konfrans Yeni Azərbaycan Partiyası və qardaş Türkiyənin Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı ilə keçirilmişdir. Müzəffər Ali Baş Komandanımız cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə məhz 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi torpaqlarını azad etdi və Azərbaycan Vətən müharibəsi apararkən qardaş ölkə Türkiyənin, prezidenti cənab Rəcəb Tayyib Ərdoğan məhz müharibənin ilk dəqiqələrindən Azərbaycanın yanında olduqlarını dəfələrlə bəyan etmişdir. Bu əlbəttə ki, Azərbaycana əlavə güc verirdi.

Cənab İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı məktubda bir çox vacib mesajlar verildi. Burada həm Azərbaycan-Türkiyə qardaşlığının möhkəmləndirilməsinin çox müsbət nəticələri, müttəfiqlik haqqında imzalanmış bu sənədin Azərbaycanla Türkiyənin güclənməsinə xidmət etdiyi, töhvə verdiyi, o cümlədən bölgədə əmin-amanlığın, sülhün təmin olunması xüsusi qeyd olunmuşdur.

Konfransda hər iki ölkədən yüksək vəzifəli şəxslər, nazirlər, nazir müavinləri, tanınmış icatimai-siyasi xadimlər iştirak edirdilər. Azərbaycanda fəaliyyət göstərən çoxlu sayda digər siyasi partiyalarının rəhbərlərinin də burada iştirakı vacib məqamlardan biri idi ki, bu da son illər ərzində Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə məhz ölkəmizdə çox uğurla həyata keçirilən siyasi dialoqun məntiqi nəticəsi və milli həmrəyliyin təntənəsidir.

Şuşa bəyannaməsinin imzalanması ümumilikdə müstəqil siyasət yürüdən hər iki ölkənin milli maraqlarıan xidmət edən tarixi bir sənəddir. Beynəlxalq konfransın böyük bir siyasi çəkisi var idi. Burada ilk növbədə Azərbaycan-Türkiyə birliyinin bir daha dünyaya nümayiş olunması, o cümlədən də Azərbaycan-Türkiyə birliyinin türk dünyasının əməkdaşlığına, tərəqqisinə xidmət edir. Bəyannamə Qafqazın və regionun bütövlükdə sülhün və sabitliyin bir qarantıdır. Əlbəttə, sülh və sabitlik olduğu yerdə inkişaf və tərəqqidən də danışmaq mümkündür.

Bütövlükdə tədbirdə müxtəlif panellər keçirilməklə Şuşa bəyannaməsinin bir il ərzində Azərbaycan və Türkiyə işbirliyi, müttəfiqliyimizin nəticəsində, əldə olunan uğurlar, gələcək perspektivlərdən geniş söhbət açıldı. O cümlədən, bir daha beynəlxalq konfrans və bu günə kimi həyata keçirilən tədbirlər və qarşıda müttəfiqlik haqqında sənəddə nəzərdə tutulan müddəaların icrasından danışılarkən bir daha onu göstərdi ki, Şuşa bəyannaməsi Azərbaycan-Türkiyə əlaqələrini ən yüksək səviyyəyə çatdıraraq daha da möhkəmləndirib. Panel müzakirələrdə qeyd edildi ki, ölkələrimiz arasında mövcud olan yüksək səviyyəli münasibətlər Azərbaycan Prezidenti cənab İlham Əliyev və qardaş ölkənin prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi böyük işlərin məntiqi nəticəsidir və Azərbaycan-Türkiyə birliyi, yaxınlığı, yüksək səviyyəli münasibətləri, qardaşlığı bu günə kimi heç vaxt olmadığı qədər ən yüksək səviyyədə formalaşmışdır.

Digər bir tərəfdən Şuşa bəyannaməsi və Azərbaycan-Türkiyə birliyi artıq Azərbaycan-Türkiyə sərhədlərini aşaraq bütövlükdə region, Qafqaz üçün sülh və əmin-amanlıq, tərəqqi və inkişaf, türk dövlətlərini yaxınlaşdıran, əlaqələrini möhkəmləndirən, birləşdirən tarixi bir sənəddir.

Bu gün dünyada baş verən qlobal hadisələr fonunda bir daha bütün dünya əmin olur ki, Azərbaycan və Türkiyə liderlərinin vaxtında və zamanında atdığı addımın nəticəsi olaraq Şuşa bəyannaməsini imzalaması Azərbaycan və Türkiyə birliyini bütövlükdə beynəlxalq güc mərkəzinə çevirmişdir".

**Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev:** "Şuşada keçirilən və Şuşa bəyannaməsinin bir illiyinə həsr olunmuş beynəlxalq konfransın əhəmiyyəti çox böyükdür. Burada həm Türkiyə, həm də Azərbaycanın müxalifət partiyaları iştirak edirdi. Bu çox xoş əhval-ruhiyyə yaradan birlik nümayiş etdirən bir məqam idi. Çünki zaman-zaman həm Azərbaycan, həm də Türkiyədə müxalifəti iqtidara qarşı qoymaq, başqa məqsədlər üçün alətə çevirmək cəhdləri olur. 44 günlük Vətən müharibəsində Azərbaycanda siyasi partiyalar vahid mövqedən çıxış etdilər. İqtidar və müxlifət bir araya gəldi və birlik göstərdi. Bir daha nümayiş etdirildi ki, bu birlik sarsılmaz və dönməzdir.



Şuşa bəyannaməsi Azərbaycanın suverenliyini, müstəqilliyinin və Qarabağın Azərbaycana aid olduğunun zəmanətidir. Şuşa bəyannaməsi bizə daha rahat siyasət aparmağı kömək edir. Azərbaycan ilə Türkiyəni konkret olaraq hərbi-siyasi səviyyədə təkcə sözdə yox, əməldə də birdirlər. Bu baxımdan "Azərbaycan - Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda keçirilən beynəlxalq konfransın Şuşada keçirilməsi bütün dünyaya bir mesaj oldu ki, Qarabağ Azərbaycanındır, Azərbaycanın ərazi bütövlüyü parçalana bilməz".

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev:** "Azərbaycan - Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda keçirilən beynəlxalq konfrans çox əlamətdar bir konfrans idi. Şuşa bəyannaməsi Azərbaycan ilə Türkiyə arasında imzalanan Qars müqaviləsi kimi mühüm bir sənəddir. Şuşa bəyannaməsini Prezident İlham Əliyevin uğuru kimi hesab edirəm. Konfransda Yeni Azərbaycan Partiyası ilə yanaşı digər partiyalar da iştirak edirdi. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, sektor müdirlərinin təşkilatçılığı ilə belə bir böyük konfrans keçirilib. Konfrans çox yüksək səviyyədə keçirildi. Şuşa bəyannaməsi bir daha onu göstərdi ki, Azərbaycan xalqı Prezidentin ətrafında birləşmiş bir xalqdır".



**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev:** ""Azərbaycan - Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etdim. Moskva, Qars müqavilələri nə qədər əhəmiyyətlidirsə, Şuşa bəyannmsi də o qədər əhəmiyyətlidir. Şuşa bəyannaməsində bütövlükdə Azərbaycanla bağlı çox ciddi müddəalar var. Ona görə də, bu bəyannamə Türkiyə və Azərbaycan arasındakı münasibətləri siyasi və hüquqi cəhətdən ən yüksək səviyyədə təmin olunub. "Azərbaycan - Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda keçirilən beynəlxalq konfrans dünyaya mesaj idi. Azərbaycan ilə Türkiyə bir yerdədir. Bu bəyannamə Türkiyə Azərbaycan münasibətlərini daha yüksək səviyyəyə çatdıracaq və bölgədə sabitlik gətirəcək".



*Ayşən Vəli*
*Arzu Qurbanzadə*

# Əmək kitabçalarının dövriyyədən çıxarılması nələrə səbəb ola bilər?

ARAŞDIRMA

**Hamımızın fərqli iş və şəxsi həyat gözləntilərimiz var. İş dəyişikliyi etməzdən əvvəl bizim üçün düzgün qərar verməmiz gələcəkdə peşman olmağımızın qarşısını alır. Əgər müdiriniz sizi dəstəkləyirsə, işinizdən razısınızsa, dinc iş mühitiniz varsa, bunlar yaxşı əlamətlərdir.**

Əmək kitabçası işçinin əmək fəaliyyəti haqqında məlumatları özündə əks etdirən əsas sənəddir. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 48-ci maddəsinə uyğun olaraq hər bir şəxs əmək müqaviləsi bağlayarkən işəgötürənə digər sənədlərlə yanaşı əmək kitabçasını da təqdim etməlidir. Əmək fəaliyyətinə ilk dəfə başlayan şəxslərdən əmək kitabçası tələb olunmur. Bu şəxsləri işəgötürən əmək kitabçası ilə təmin etməlidir. Eyni zamanda məcburi köçkünlər, qaçqınlar və onlara bərabər tutulan şəxslər, habelə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə əmək kitabçası təqdim olunmadan da əmək müqaviləsi bağlana bilər.

Əmək kitabçası itdikdə qaydalara uyğun olaraq işçiyə əmək kitabçasının dublikatı verilir. Əmək kitabçasında pensiyanın təyin edilməsi haqqıhda da qeydlər aparılır.

Əmək kitabçası 5 gündən artıq işləyən bütün işçilər üçün alınmalıdır, və ya təqdim olunan əmək kitabçasında müvafiq qeydlər edilməlidir. İşçi ilə əmək müqaviləsinə xitam verildikdə, əmək müqaviləsinə xitam verilən gün əmək kitabçası zəruri qeydlər aparılmaqla işçiyə verilməlidir. Əmək kitabçasının işdən çıxan işçiyə poçt vasitəsilə göndərilməsinə yalnız işçinin razılığı ilə yol verilir. Vəfat etmiş işçinin əmək kitabçası onun ailəsinə verilir.

Əmək kitabçasını əldə etmək üçün hər bir işəgötürən Azərbaycan Respublikası ƏƏSM Nazirliyi Baş Məşğulluq İdarəsinə və ya onun yerli orqanlarına yazılı müraciət etməli və əmək kitabçalarının miqdarına uyğun olaraq onun haqqını ödəməlidir.

Əmək kitabçalarının ləğvi ilə bağlı məsələ yenidən aktuallaşıb. Qeyd edək ki, əmək kitabçalarının ləğvi ilə bağlı prosesə bir neçə ildir ki, başlanıb. 2014-cü ildə isə ölkədə elektron informasiya sistemi yaradılıb. Amma əmək kitabçalarının elektronlaşmasının icrası gecikir.

Bəs, bu halda nələr baş verə bilər? Ümumiyyətlə, əmək kitabçaları nə üçün önəmlidir? SİA mövzu ilə bağlı araşdırma apararaq hüquqşünas və ekspertlərin fikirlərini öyrənib.






**Vəkil Turan Abdullazadə:** ”Əmək kitabçalarının dövriyyədən çıxarılması olduqca mütərəqqi addım olardı. Hesab edirəm ki, əmək kitabçalarının kağız daşıyıcıda olması işçilərin və işəgötürənlərin sui-istifadəsinə səbəb olur.

Təcrübədə dəfələrlə şahidi olmuşuq ki, işçilər əmək kitabçasında özlərinə sərf etməyən qeydlərin silinməsini həyata keçirərək bəzən onları saxtalaşdırır, işəgötürənlər isə işçi işdən çıxanda, onu necə deyərlər onu ”get-gələ” salmaq, başqa işə düzəlməsinin qarşısını almaq, incitmək üçün əmək kitabçasını təqdim etmirlər və ya gec təqdim edirlər. Artıq əmək kitabçalarının vahid elektron informasiya sisteminə keçirilməsi işəgötürənlərin işçilərə qarşı süründürməçiliyin və şəxslər tərəfindən saxta qeydlərin aparılmasının, habelə əmək kitabçası itirildiyi hallarda əmək stajının hesablanmasında müxtəlif problemlərin yaranmasının qarşısını alacaq. Üstəlik əməliyyatların elektron formada həyata keçirilməsi həm dövlət hakimiyyət orqanlarının, həm digər özəl təşkilatların, həm də işəgötürənlərin işinin operativ həyata keçirilməsinə, əmək münasibətləri ilə bağlı məlumatların çatımlılığına öz töhfəsini verəcəkdir. İnkişaf etmiş və etməkdə olan ölkələrin əksəriyyəti artıq bütün fəaliyyət sahələri üzrə elektron sistemə keçirlər. Bu günümüzün tələbidir.

Düşünürəm ki, vahid elektron informasiya sisteminə kompleks şəkildə bütün fəaliyyət sahələri üzrə keçid etmək müxtəlif kənar təsirlərin və süründürməçiliyin qarşısını alacaq, qeyri-prosessual münasibətləri və korrupsiya hallarını minimum endirərək daha mütərəqqi, dayanıqlı və inkişaf etmiş bir cəmiyyətin yaranmasına vəsilə olacaqdır”.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov:** ”Əmək kitabçaları özünün ənənəvi funksiyalarını itirib. Ona görə də təklif olunur ki, dövriyyədən çıxarılsın və sənəd olaraq öz qüvvəsini saxlasın. Onun dövriyyədə qalması həm biznes, həm də dövlət üçün əlavə



xərclərdir. Bir çox ölkələrdə ümumiyyətlə əmək kitabçaları tətbiq olunmur.

Sosial Tədqiqatlar Mərkəzi olaraq bizim də dövlətə təklifimiz var idi. O da nəzərə alınıb. Əmək kitabçalarının elektronlaşması həm işçilərin, həm dövlətin, həm də işəgötürənlərin xeyrinədir.

Hal-hazırda Rusiya da bunu ləğv etməyə hazırlaşır. Amma biz daha əvvəldən buna hazırıq. Azərbaycanda 2014-cü ildən elektron informasiya sistemi yaradılıb. Həmin vaxtdan işə qəbul olunanların bütün əmək fəaliyyəti burada toplanır.

Ümumiyyətlə isə 2006-cı ildən İcbari Dövlət Sığortası üzrə fərdi yığım getdiyi üçün əmək kitabçası ondan sonra əhəmiyyətini itirib. Ona görə də o dövriyyədən çıxarılaraq hər kəsin özünə qaytarılmalıdır. Amma yeni işə qəbul olunanlara əmək kitabçası açılmalı və onlardan bu kitabça tələb olunmalı deyil.

Sənəd kimi saxlamaq lazımdır. Ona görə o sənəd bir CV rolunu oynayaraq qalacaq. Nazirlik 2006-cı ilə qədər işləyənlərlə bağlı məsələ üzərində də çalışır. Bir neçə variant var ki, onun elektron informasiya sistemində yerləşdirilməsi prosesi gözdən keçirilir”.

***Ayşən Vəli***

# “Taxılın qiymətinin artması çörəyin qiymətində də bahalaşmaya səbəb olacaq”

İQTİSADÇI AÇIQLADI

**“Taxılın bahalaşması gözlənilir, hətta bahalaşmağa da başlayıb. Bildiyiniz kimi hazırda Rusiya ilə Ukrayna arasında müharibə davam edir. Bu iki ölkə dünya taxıl tələbatının 30 faizini təşkil edirdi”. Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı Asif İbrahimov bildirib.**

Onun sözlərinə görə, Rusiyaya tətbiq edilən sanksiya və qadağalar artıq Rusiyada müəyyən çətinliklər yaratmağa başlamışdı: ”Öz məhsullarını ixrac edə bilmirdilər, xammal əldə edə bilmirdilər. Bir çox ölkələr onların məhsullarını almaqdan imtina edir və s. Ukraynada isə digər bir problem istehsal etdiyi taxılın 95 faizini dünya bazarına çıxara bilməməsidir. Bunun bir səbəbi orada baş verən dağıntılardır. Eyni zamanda Qaradənizdə yerləşən Ukrayna portlarının hamısının Rusiya nəzarətinə keçməsidir. Yəni Qaradəniz vasitəsilə də ixrac etmək mümkün olmayıb. Bilirsiniz ki, Azərbaycana və Azərbaycan tipli ölkələrə məhsulları Rusiya, Belarusiya vasitəsilə quruyolu ilə, eyni zamanda Qaradəniz vasitəsilə daşınması həyata keçirilirdi. Düşünürəm ki, Azərbaycanda sentyabr və oktyabr aylarında bu sahədə ciddi problemlər yarana bilər, taxılın qiymətinin artması çörən qiymətində də bahalaşmaya səbəb olacaq. Bunun qarşısını almaq üçün bir çox tədbirləri vaxtında həyata keçirmək lazımdır. Əkinə yararlı torpaqların məhv edilməsi, tədbirlərin vaxtında yerinə yetirilməməsi torpaqların şoranlaşmasına səbəb olub və bu müvafiq dövlət qurumlarının fəaliyyətsizliyi nəticəsində baş verib. Bunu dərk etmək lazımdır ki, dünya ərzaq qıtlığının astanasındadır. İndiki vəziyyət çox ağır və təhlükəli vəziyyətdir. Bu sahədə yerli istehsalı gücləndirməliyik. Şoranlaşma baş vermiş torpaqlarda təxirəsalınmış tədbirlər həyata keçirilməlidir. Fermerlərin fikirləri bir-bir təhlil olunmalıdır. Fəaliyyət planı hazırlanmadan öncə onlarla görüşülüb, fikirləri alınmalıdır. Bir çox tədbirlər həyata keçirilməlidir. Ərzaq qıtlığından çıxmağın ən yaxşı yolu daxili istehsalımızı gücləndirməkdir. Bundan başqa Qazaxıstan, Rusiya və Ukraynanın alternativləri axtarılmalıdır. Onlardan biri Hindistandır.



Hazırda Hindistanın 30 milyon tona yaxın taxıl ehtiyatı mövcuddur. Hindistan bir neçə həftə əvvəl qeyd etdi ki, taxılın ixracına qadağa qoyulub. Alternativlərdən biri Hindistan olmalıdır. Təbii ki, logistika və daşınmadakı problemlərin həll olunma şərti ilə”.

***Abutel İlhamqızı***

# “Azərbaycanın ABŞ-la münasibətləri çoxşaxəli xarakter daşıyır”



“Azərbaycan Amerika Birləşmiş Ştatları üçün çox etibarlı tərəfdaş kimi uzun illərdir ki, əməkdaşlıq edir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Asim Mollazadə bildirib. Onun sözlərinə görə, Azərbaycan təhlükəsizlik sahəsində ABŞ-a dəfələrlə böyük dəstək verib: ”Azərbaycanın hayata keçirdiyi enerji layihələri Amerikanın müttəfiqlərinin enerji təhlükəsizliyi üçün böyük önəm daşıyır. Qlobal nəqliyyat sistemlərinin formalaşmağı Amerikanın maraqlarına uyğundur. Düşünürəm ki, Qarabağın bərpası üçün ABŞ-dan gələn müasir texnologiyalara və investisiyalara ehtiyac var. Azərbaycanın ABŞ-la əlaqələri gələcək mərhələlərdə daha da genişlənəcək. Azərbaycanın ABŞ-la münasibətləri çoxşaxəli xarakter daşıyır. Azərbaycan bölgədə sülh və sabitlik yaratmaq üçün postmüharibə dövründə regionda geniş əməkdaşlıq sistemi formalaşdırıb. Ətraf mühitin qorunması üçün yaşıl enerji sistemlərinin genişləndirilməsi üçün də əməkdaşlıq inkişaf etdirilir”.

***Abutel İlhamqızı***

# 17 İyun Səhiyyə İşçiləri Günüdür

## İnsanların sağlamlığının keşiyində duranlar



**Sağlamlığımızın qorunması hər zaman olduğu kimi, bu gün də ən vacib məsələlərdən biridir. Odur ki, səhiyyəyə diqqət və qayğının artırılması Azərbaycanın səhiyyə sistemini dövrlə ayaqlaşan, qlobal dəyişikliklərə cavab verən və tərəqqi edən bir sahəyə çevirib. Səhiyyə sahəsində bir çox istiqamətlər üzrə islahatlar aparılır, dövlət proqramları reallaşır. "Səhiyyə bizim üçün əziz, qiymətli bir sahədir və onun inkişafı üçün lazımi tədbirlər görüləcəkdir", - deyə Ümummilli Lider Heydər Əliyev bildirib.**

Bu gün milyonlarla insana həyat və şəfa bəxş edən, onlara həyati təhlükə yarananda ikinci həyat, yenidən sağlamlıq bəxş edən tibb işçilərinin peşə bayramıdır. Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə tibb işçilərinin peşə bayramı üçün 17 iyun tarixinin müəyyən edilməsi təsadüfi deyil. Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri ilə 1918-ci il iyunun 17-də Səhiyyə Nazirliyi təsis olunub. Ötən 104 ildə Azərbaycan səhiyyəsi böyük inkişaf yolu keçib. Tibbi yardımın təşkili üçün yeni xəstəxanalar və apteklər açılıb, həm əhaliyə, həm də döyüşlərdə yaralanan əsgər və zabitlərə tibbi yardımın təşkili, həmin dövrdə geniş yayılmış yoluxucu xəstəliklərin qarşısının alınması üçün tədbirlər görülüb.

Cümhuriyyətin səhiyyə sahəsində mühüm tədbirlərindən biri də tibbi kadrların hazırlığı idi. Həmin dövrdə Cümhuriyyət hökumətinin xaricə təhsil almaq üçün göndərdiyi tələbələrdən bir çoxu təbabət üzrə təhsil alırdılar. Digər tərəfdən, 1919-cu ildə əsası qoyulan Bakı Dövlət Universitetində tibb fakültəsi yaradıldı. Bu tibb kadrları sonralar səhiyyəmizin kadr potensialının özəyini təşkil etdilər.

Bu istiqamətdə iş sovet hakimiyyətinin ilk illərində də davam etdirilib, yüzlərlə yeni xəstəxana, poliklinika və aptek yaradıldı. Azərbaycan səhiyyəsinin sonrakı inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Səhiyyə məsələlərinə böyük diqqət və qayğı ilə yanaşan Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə bugünkü iri tibb müəssisələrinin əksəriyyəti inşa olunub əhalinin istifadəsinə verildi. Kadr hazırlığına böyük diqqət yetirən Ulu Öndər istedadlı gəncləri tanınmış tibb təhsili ocaqlarına göndərir, orada yüksək ixtisaslı kadrlar kimi formalaşmasına şərait yaradırdı. Həkimlərin ixtisasını artırması üçün Azərbaycanda müxtəlif konfranslar, simpoziumlar keçirilirdi. Ümummilli Lider bu fəaliyyətini müstəqilliyimizin bərpasından sonrakı illərdə - xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıdışından sonra da davam etdirdi.

Hazırda insanların sağlamlığının qorunması, gələcək nəslin sağlam böyüməsi ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və dövlətimizin başçısı bu məsələləri daim diqqət mərkəzində saxlayır. Son illər Azərbaycan səhiyyəsinin idarə olunması, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni tibbi texnologiyaların tətbiqi, köklü kadr islahatları və aparılan digər tədbirlər onu dünyanın qabaqcıl ölkələrinin səviyyəsinə çıxarmağa imkan yaradıb. Tibb müəssisələrinin təmir və bərpası, vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təmin olunması, onların müalicəsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, xüsusilə uşaqların bütün tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində aparılan islahatların əsas istiqamətlərini təşkil edir. Ölkəmizdə yüzlərlə yeni tikilmiş və ya əsaslı təmirdən çıxmış tibb müəssisəsi müasir avadanlıqlarla təmin olunub. Aparılan islahatlar, maddi-texniki bazanın təkmilləşdirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı görülən işlər əhalinin dövlət tibb müəssisələrinə olan inamını getdikcə artırır. Heydər Əliyev Fondunun diabetli, talassemiyalı xəstələrə göstərdiyi qayğı və onların müalicəsinin təşkilində, qanvermə aksiyalarının keçirilməsində, ana və uşaqların sağlamlığının qorunmasının yaxşılaşdırılmasında gördüyü işlər də böyük razılıq və rəğbət doğurur.

Səhiyyə sahəsində aparılan islahatların davamı olaraq icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir. İcbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artırır. İcbari tibbi sığorta müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni formasıdır. Azərbaycanın hər bir bölgəsində əhali müasir xəstəxanalarda keyfiyyətli tibbi yardım ala bilir. Xaricdə təhsil almış yüsək ixtisaslı həkim kadrlar və peşəkar tibbi heyət olduğu üçün xəstələr öz sağlamlıqlarına qovuşmaq üçün xarici ölkələrə üz tutmurlar. Müxtəlif xəstəliklər üzrə insanlar pulsuz dərmanlarla təmin olunur, maddi imkanı aşağı olan xəstələrin müalicə xərcləri dövlət hesabına ödənilir.

Bugünkü durumda koronovirusla mübarizədə həkimlərin fədakarlıq göstərməsi bu peşə sahiblərinin nə qədər müqəddəs bir fəaliyyətlə məşğul olmasını bir daha önə çəkdi. Tibb işçiləri öz vəzifə borclarını ləyaqətlə yerinə yetirərək ən çətin günlərdə ümumbəşəri təhlükə ilə mübarizənin ön cərgəsində oldular. Koronovirusla mübarizəyə cəlb olunmuş həkimlərin məvaciblərinin artırılması ilə bağlı dövlət başçısı Sərəncam imzaladı. Həkimlər insan sağlamlığı, insanın yaşaması uğrunda öz həyatlarını təhlükəyə qoydular və bu gün də belədir. Yürüdülən dövlət siyasəti və vətəndaşların artan məsuliyyəti nəticəsində hələ də Azərbaycanda koronavirusla bağlı vəziyyət nəzarət altındadır. Azərbaycan Cənubi Qafqazda ilk olaraq vaksinasiya işlərinə start vermişdir.

Bütün bunlar sübut edir ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi istiqamətində icra olunan layihələri dövlətimizin başçısı Cənab İlham Əliyev daim nəzarətdə saxlayır. Bu layihələr, eyni zamanda, vətəndaşlarımızın məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı görülən mühüm işlərin davamlı olduğunu göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Bakı ilə sülh sazişi Paşinyan üçün ölüm-qalım məsələsidir"

**Rusiyanın Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Caliber" analitik mərkəzinə müsahibəsində Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- İrəvandakı etiraz bazasının səviyyəsini necə qiymətləndirirsiniz? Sizcə, ölkədə mövcud hakimiyyətdə dəyişiklik təhlükəsi varmı?***

- Ermənistanda etiraz bazasının səviyyəsi, gördüyümüz kimi, o qədər də böyük deyil. İrəvanın özündə etirazçıların sayı 2-3 min nəfəri ötmürdü, indi bu rəqəm daha da azalıb. Yəni etiraz bazasının səviyyəsi parlamentdəki iki müxalifət fraksiyasının dəstəyindən və Köçəryan və Sarkisyanın tərəfdarlarının hazırda sahib olduğu cəmiyyətdəki ənənəvi dəstəkdən o yana keçmir. Deməli, aksiyaların genişlənməsi yoxdur, amma biz vaxtaşırı erməni ekspertlərinin və siyasətçilərinin bəyanatlarını oxuyuruq ki, məhz meydanda erməni cəmiyyətini təmsil edən insanlar onun özəyini təşkil edir. Bəzi qəribə iddialar da var ki, Rusiya bu müqavilələrə əsasən indiki hakimiyyətlə danışıqlar apararkən erməni cəmiyyətindən mandat almır.

Təbii ki, bütün bu iddialar tamamilə cəfəngiyyatdır. Seçkilər göstərdi ki, Rusiya, Azərbaycan və Türkiyə ilə istənilən beynəlxalq danışıqların mandatı məhz indiki İrəvan hökumətidir. Meydanda isə guya cəmiyyəti təmsil edən kiçik bir ovuc insan real oyunun olmadığı halda piardan başqa bir şey deyil. Paşinyanın cəmiyyətin həyatındakı real sosial dəyişikliklərdən kənara çəkilməsində yalnız etiraz bazasını artıracaq. Axı onlar onu dəstəklədilər, ona görə də Qarabağda qarşıdurma bitdikdən sonra (10 noyabr 2020-ci ildə müqavilə imzaladıqdan sonra) dəyişikliklərin olacağı ilə bağlı gözləntiləri onunla əlaqələndirdilər. Türkiyə ilə ticarətdə, Azərbaycanla münasibətlərdə müsbət dəyişikliklər olacaq, Rusiya ilə ticarət əlaqələrinin intensivləşdirilməsi imkanları yaranacaq. Bütün bunlar üçün razılaşmalar həyata keçirilməli, nəqliyyat və logistika kommunikasiyaları açılmalıdır və bu, Ermənistanda həyatı nəzərəçarpacaq dərəcədə dəyişəcək. Və bu proses nə qədər uzansa, əhalinin Paşinyan dövründə bu dəyişikliklərin baş verəcəyinə inamı bir o qədər azalır. Hesab edirəm ki, etiraz bazası daha da böyüyə bilər, xüsusən də qarşıdan yay fəsli olduğu üçün, gənclərin nümayəndələrini küçə aksiyalarına cəlb etmək daha asan olduğu üçün.

***- Ermənistan müxalifətinin revanşist əhval-ruhiyyəsini nəzərə alsaq, Qarabağda yeni hərbi toqquşma ehtimalını etiraf edirsinizmi?***

- İndiki hökumət dövründə yox. Ermənistanla Azərbaycan arasında yeni hərbi toqquşma ehtimalı real deyil. Paşinyan heç bir hərbi toqquşmaya razı olmayacaq, çünki bu, onun siyasi karyerasının sonu demək olardı. Aydındır ki, toqquşmaların baş verəcəyi təqdirdə Ermənistanda sosial-iqtisadi vəziyyətdə heç bir yaxşılaşma olmadığı kimi, nəqliyyat və logistika ilə bağlı heç bir razılaşma həyata keçirilməyəcək. Paşinyan bir müharibəni uduzdu, digərini də uduzacaq. Bu ona heç bir baxımdan lazım deyil, ona görə də indiki hakimiyyətdə revanşist əhval-ruhiyyənin artdığını nəzərə alsaq belə, hərbi toqquşmalar baş verməyəcək. Amma Paşinyan müqavimət göstərməsə, Rusiyanı müharibəyə sürükləmək, çoxtərəfli münaqişə təşkil etmək üçün revanşist siyasətçilərin təxribat xarakterli hərəkətləri mümkündür.

***- Moskva Ermənistana silah tədarükünü bərpa etməyi planlaşdırırmı?***

- KTMT vasitəsilə Ermənistana silah çatdırılması mümkündür. Bununla bağlı Moskva İrəvanla bağladığı bütün razılaşmalara sadiq qalacaq, heç kim onların istər mövcud müqavilələr, istərsə də yeni sazişlər çərçivəsində hərbi-texniki əməkdaşlığını ləğv etməyib. Mümkündür, onda fövqəltəbii heç nə yoxdur. İndiki Ermənistan hakimiyyəti ordunun modernləşdirilməsini həyata keçirə bilər, dünyanın bütün dövlətləri bu və ya digər şəkildə ordunun modernləşdirilməsini həyata keçirə bilər. İndiki hökumətin dövründə bu silahlar heç kimə qarşı yönəlməyib, lakin KTMT-yə münasibətdə Ermənistanın müttəfiq ordusu bütün digər silahlı qüvvələrə aid olan bütün tələblərə cavab verməlidir.

***- Yaxın gələcəkdə Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanmasını mümkün hesab edirsinizmi?***

- Paşinyan üçün sülh sazişinin imzalanması ölüm-qalım məsələsidir. Əgər o, Bakı ilə sülh sazişi imzalaya bilməsə, o zaman İrəvanda vəziyyət daha da pisləşəcək. Paşinyanı çox çətin vəziyyətə sürükləməyə çalışırlar, müxalifət onun siyasət xəttini Ermənistanın milli maraqlarına xəyanət siyasəti kimi ifşa etmək istəyir ki, bu da təbii ki, bundan uzaqdır. O, hər şeyə rəğmən, bu siyasəti davam etdirməli və Bakı ilə sülh müqaviləsi imzalamalı, lazım gələrsə, hətta siyasi cəhətdən sərtlik nümayiş etdirməlidir. İnanıram ki, Paşinyan yaxın vaxtlarda sazişin imzalanmasını həyata keçirmək üçün böyük ehtimalla bu istiqamətdə gedəcək.

***- Moskvanın Bakı və İrəvanla bağlı mövqeyini necə qiymətləndirərdiniz?***

- Moskva onu qaranlıqda oynamağa çalışanda son dərəcə mənfi qəbul edir. Bunu qurmaq istəyəndə Rusiya ilə razılaşmadan, "sizinlə sakitcə masanın altında oynayacağıq" deyərək, ölkənin xarici siyasətindən kiminsə maraqlarına uyğun istifadə etməyə çalışırlar. Bu, son dərəcə qəbuledilməzdir və bu baxımdan Ermənistan müxalifətinin nümayəndələri yanılırlar. Nə qədər Moskva ilə oynamağa çalışsalar, bir o qədər də onunla əlaqəni itirəcəklər. Aydındır ki, həm Köçəryanın, həm də Sarkisyanın Moskvada və Rusiya Federasiyasının rəhbərliyi arasında əlaqələri var və başqa cür də ola bilməz. Moskvada əlaqələrin olması, siyasətçilərin, lobbi təşkilatlarının, o cümlədən Köçəryan və Sarkisyanla əməkdaşlığa yönəlmiş qurumların olması, bütün bunlar mövcuddur. Amma öz hərəkətlərini onunla əlaqələndirmədən rəsmi Moskvadan istifadə etməyə davam etsələr, oradakı təsirləri getdikcə azalacaq. Odur ki, indiki erməni müxalifətinin Moskva amilindən istifadə etməsi və indiki erməni müxalifətinin getdikcə nəzərə çarpan Qərb tərəfdaşları ilə əlaqəsi Kremli qıcıqlandıra bilər.

Fransada siyasi proseslərin aktivləşməsi istər-istəməz Ermənistanda siyasi əhval-ruhiyyənin yüksəlməsinə gətirib çıxarır. Fransadan belə asılılıq, hətta gülüncdür! Əgər Köçəryan və Sarkisyan tez-tez rusiyapərəstliklərindən danışırlarsa, o zaman Makronun maraqları üçün oynamağa ehtiyac yoxdur. Bəli, Makron parlament seçkilərinə görə çətin vəziyyətdədir, yaxşı, gəlin onu nə iləsə dəstəkləyək və siyasi uğurlarını Ukraynada olmasa, heç olmasa Ermənistanda göstərək. Vallah, bu gülüncdür... Bu baxımdan Ermənistanın qeyri-sabitliyi rəsmi Kremldə heç bir ruh yüksəkliyi yaratmır. Bakı ilə sabit, sistemli və mütəşəkkil münasibətlər böyük ölçüdə qalib gəlir.

***- Ermənistan-Türkiyə münasibətlərinin normallaşması ilə bağlı həmkarlarınızın nikbinliyini bölüşürsünüzmü?***

- Ümumiyyətlə, nikbinlik var. Paşinyan üçün bu, son dərəcə vacibdir. Və dediyim kimi, təxribatlara tab gətirə bilsə və hazırkı prosesləri normal şəkildə başa çatdıra bilsə, o zaman Ermənistan-Türkiyə münasibətləri bərpa olunacaq və Ermənistanla Azərbaycan arasında müqavilə imzalanacaq.

***Tərcümə - Elçin Bayramlı***

# Qələbə, Vətən adam....

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Şəhid jurnalistlərin və bütün şəhidlərin əziz xatirəsinə**
**Necəsən, gözüm nuru?**
**İçimdən ötən adam,**
**Yaraların necədir?**
**Qələbə, vətən adam .**

*(Elşad Barat)*




Müharibənin ən acı dövrü müharibədən sonra başlayır əslində. İnsanlar yalnız o zaman anlayır fəlakətin böyüklüyünü, şəhid olan oğulların yoxluğunu. Uzun-uzadı eşidilən atışma səsləri, mərmi-güllə vıyıltısı, top gurultusu silahların işıqlandırdığı o qara gecələrdə qalır, amma o silahların aldığı canlar, bitirdiyi həyatlar ömür boyu cəmiyyətin ağrısı-acısı, qanayan yarası olur.

Müharibə dövründə və müharibədən sonra itkin hərbçilərin nəşinin tapıldıqca dəfn edildiyi mərasimlər bizi bizdən aldı, 2 ildir rəngimizi boğan, həyat eşqimizi söndürən pandemiya bəlasının verdiyi mənəvi-psixoloji əziyyət müharibə dəhşətinin yanında heç nə imiş sən demə.

Vətən müharibəsində dayımın sonbeşiyi, 4 oğlundan biri, 7 ildir vətənə xidmət edən MAXE Murad İbrahimov da şəhid oldu. Onun şəhidliyə gedən yolu uzun çəkdi, 4 ay səksəkə içində, iztirabla yaşadıq- şəhidliyi ilə dəfni arasında uzun aylar oldu.

Murad dəli-dolu oğlan idi, tezcanlı, hərəkətli, dinamik idi. Onu bir dəqiqə bir yerdə dayanan görməmişdik. Atəş parçası, alov dilimi idi sanki. Gözümün önündə böyüdü, əsgər oldu, MAXE oldu, ata oldu, şəhid oldu. Bir yazıya sığacaq qədər qısa ömrü, bir yazıya sığmayacaq qədər uzun qəhrəmanlığı oldu

Muradla sonuncu dəfə 2020-ci ilin sentyabrında danışmışdıq, Vətən Müharibəsindən günlər əvvəl. Onun işi ilə əlaqədar illərdir görüşmürdük, ancaq telefonla danışa bilirdik. Ad günü idi sentyabrın 6-da. Doğrusu unutmuşdum, gec yadıma düşdü, zəng edib təbrik etdim. Sonuncu ad günü olacaqmış, kimin ağlına gələrdi?

Onu tanıyan hamı bilir ki Muradın uşaqlıq arzusu hərbçi olmaq, vətənin keşiyində durmaq, onu qorumaq olub. Bir parça uşaq idi hələ, əlinə taxtalardan düzəltdiyi avtomatı alıb həyətin künc-bucağına girib səngər-döyüş oyunları oynayırdı.

Sözünün əvvəli də, sonu da Vətən idi Muradın. 2-ci Qarabağ Müharibəsi başlandığı ilk günlərdən öz döyüş yoldaşları ilə ön cəbhəyə yollanmışdı. Təcrübəli hərbçi idi, Murovu da tanıyırdı, ora döyüşə getməyin təhlükəli olduğunu da bilirdi. Amma ora getməkdə israr edib, cüssəcə zəif olduğuna görə Murov kimi çətin iqlim şəraiti olan ərazidə döyüşməsini istəməyən, "cəbhəyə təminat işlərinə dəstək ver" deyən komandirlərinə "məni də göndərin, göndərməsəniz gizlincə qaçıb gedəcəm" deyə təkid edib.

Murad sonuncu dəfə 2020-ci ilin oktyabr ayının 2-də, Vətən Müharibəsinin 5-ci günündə evə zəng edərək 1 yaşlı oğlunu soruşub, "Mən Murova gedirəm, bəlkə qayıtmadım" demişdi. Bütün döyüş yoldaşları kimi o da bilirdi ki, Murov dağları gedər-gəlməz ola bilər, o dağlardan geri qayıtmaya bilər, amma bu, onu qorxutmamışdı, Vətən üçün ən çətin imtahanına getməyi könüllü istəmişdi yüzlərlə hərbçi yoldaşı kimi. Ailəsi elə ən son səsini o gün eşitmişdi Muradın.

Murad Kəlbəcər rayonu və Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib. 3 oktyabr 2020-ci il tarixində Kəlbəcər rayonu istiqamətində bir bölük döyüşçü ilə Murova yollanıblar. O döyüşçülərin böyük əksəriyyəti sonralar Azərbaycan tarixinə "Vətən Müharibəsinin İlk şəhidləri" kimi düşəcəkdilər. Murad da onlardan biri olacaqdı.






Batalyon 3 istiqamətdə hərəkət etməli idi. Muradın da daxil olduğu 24 nəfərlik taqım Ağdərə istiqamətində irəliləyərək döyüşüb. Murad Qaragöl istiqamətində (Çınqıllıq adlanan ərazi) gedən qızğın döyüşlərdə iştirak edib, qəhrəmanlıq göstərib. Son döyüşdə ayağından yaralanıb, lakin döyüşü dayandırmayıb, yaralı halda atışmağa davam edib.

Yaxınlığa düşən top mərmisi daha ağır yaralanmağına səbəb olub, sol qolu çiyninədək yanıb. Amma ağır yarası, axan qanı onu sarsıtmayıb, döyüş yoldaşları ilə birlikdə güllə yağışı altında Vətənə olan son xidmətlərini gerçəkləşdiriblər və qəhrəmanlıqla şəhid olublar. Murov dağı o gecə 3 ayrı istiqamətdə döyüşən 60-dan çox igidi udub. Murad İbrahimov da o gənclərdən biri oldu.

Muradı və şəhid olan digər döyüşçü yoldaşlarını tapmaq asan olmadı. Müharibə bitdi, Zəfər Günü insanlar küçələrə axışdı, ölkənin hər yerində şəhid ağıları ilə zəfər hayqırışları bir-birinə qarışdı. Şəhidlər dəfn edildi, anaları o məzarların başında tapdı təsəllini, amma Muradla bərabər həlak olan 60-dək döyüşçüdən hələ də xəbər yox idi.

Murovun öz qoynuna dəfn etdiyi o igidlər 4 ayadək axtarıldılar, ərazini örtən qalın qar axtarışlara mane olurdu. Murov dağı, həndəvəri, Çınqıllıq addım-addım qazıldı, qarın altına qarış-qarış baxıldı. Xilasetmə qrupları çətin şəraitdə, qurşağadək qarın içində işləyirdilər. Şəhidləri tapmaq onların 100 gündən çox axtarışından sonra mümkün oldu. Murad şəhid olduğu gündən 111 gün sonra qalın qar təbəqəsinin altından silahına iki əlli sarıldığı vəziyyətdə tapıldı.

Muradlar olmadan Zəfər Günü qeyd etdik. Zəfər Günü zəfər mahnıları şəhid ağıları ilə eyni küçədə səslənirdi. Muradların qanı ilə yazılan zəfər tarixini əks etdirən yazılar yazdıq, şeirlər, nəğmələr qoşduq. Ürəyinə dağ çəkilən atalar, anaların gözünə baxa bilmədik ondan sönra. Etiraf edirəm, mən ürəkdolusu sevinə bilmədim qələbəyə, zəfərə. Çünki Zəfər günü Murad hələ qar altında idi, ailəsinin gözü yolda, qulağı səsdə idi.

Bilirəm, bu hissi hamımız yaşadıq. Utandıq, qələbəni içimizdə boğularaq yaşadıq. Şəhidlərin ailələrindən-boynu bükülən atalarından, bir gecədə saçı ağaran analarından, beşikdəki balalarından, əli xınada, toy şirnisi xonçada qalan sevdiyindən utandıq.

Murad şəhidliyə ucaldığı gündən 113 gün sonra, 23 yanvar 2021-ci il tarixində Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edildi. 27 yaşlı şəhid ölümündən sonra "Vətən Uğrunda", "Cəsur Döyüşçü", "Kəlbəcərin azad olunması uğrunda" medalları ilə təltif edildi. Bu gün sinəsi üzərində 3 rəngli bayrağı əks etdirən qərənfillərin fonunda sinə daşından qürurla boylanan gənc o məzarda vətəninə, dövlətinə son vəzifəsini şərəflə yerinə yetirərək uyuyur. Minlərlə silahdaşı kimi

**Lalə Mehralı**

SON SƏHİFƏ

# Səs

17 iyun
2022-ci il



# Paraüzgüçümüz dünya çempionu oldu!

**Azərbaycan Milli Paralimpiya Komitəsinin üzgüçülük üzrə yığma komandasının üzvü Vəli İsrafilov Portuqaliyanın Madeyra şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanıb. Komitədən AZƏRTAC-a bildiriblər ki, "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarının qalibi olan V.İsrafilov 100 metr məsafəyə brass üsulla üzgüçülük yarışında 1 dəqiqə 05,66 saniyəlik nəticə göstərib.**

Beləliklə, millimizin dünya çempionatında qazandığı medalların sayı 4-ə çatıb. Qeyd edək ki, daha əvvəl üzgüçümüz Roman Saley 1 qızıl və 2 gümüş medal qazanmışdı.



# Poqba: "Mançester Yunayted"ə səhv etdiyini göstərəcəyəm"

"Mançester Yunayted"dən ayrılan Pol Poqba klubun onunla müqaviləni yeniləməməkdə səhvə yol verdiyini düşünür. Qol.az xəbər verir ki, bu barədə yarımmüdafiəçi Britaniya mətbuatına açıqlamasında danışıb. O, deyib: "Mənim fikrim, "Mançester Yunayted"ə mənə müqavilə təklif etməməkdə səhvə yol verdiklərini göstərməkdir. Mən digər klublara da bunu göstərmək istəyirəm".

Qeyd edək ki, Poqba 2016-cı ildə "Yuventus"dan "Mançester Yunayted"ə keçib.

# Yol qəzaları niyə artır?

*ƏSL SƏBƏBLƏRİ BƏLLİ OLDU!*



**"Son zamanlarda xüsusilə taksi fəaliyyəti ilə məşğul olan şəxslərin yol hərəkəti qaydalarına münasibətində vətəndaşların haqlı narazılıq və narahatlığının şahidi oluruq". Bu sözləri SİA-ya açıqlamasında Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi (DYP) İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli deyib.**

Onun sözlərinə görə, bir yol-nəqliyyat hadisəsini araşdırdıqda həmin qəzanı törədən şəxsin avtomobilinin qəzalı vəziyyətdə olduğu və bundan öncəki qəzanın belə fəsadlarının aradan qaldırılmadığının şahidi oluruq: "Yəni bəzən elə olur ki eyni avtomobil 1 ay ərzində bir neçə hadisə törədir. Ümumilikdə yol-nəqliyyat hadisələrinə nəzər yetirdikdə yol-nəqliyyat hadisələrinin paytaxt ərazisində daha çox baş verməsi də başa düşüləndir. Söhbət əsasən maddi xəsarətlə yekunlaşan hadisələrdən gedir. Düzdür son 10 ildə baş verən qəzalarda insan ölümlərinin və xəsarətlərin sayının azalması bizi sevindirir.



Nəzərə alsaq ki, respublikanın avtomobil parkı 1 milyon 700 minə yaxınlaşır. Həmin avtomobillərin isə 70%-ə qədəri məhz paytaxt ərazisində istifadə olunur. Ümumilikdə yol-nəqliyyat hadisələrini 10 illik statistika ilə müqayisə etdikdə bu rəqəmlərdə azalma müşahidə edilir. Amma son zamanların yol-nəqliyyat hadisələrinin ümumi mənzərəsi daha çox taksi fəaliyyət göstərən sürücülərin törətdiyi yol-nəqliyyat hadisələrindən ibarətdir".

***Arzu Qurbanlı***

# Yayda ən çox hansı qidalara üstünlük verilməlidir?

*MÜTƏXƏSSİS AÇIQLADI*



**"Yay aylarında üstünlük verəcəyimiz qidaları aşağıdakı kimi sıralaya bilərik. Orqanizmin müqavimətini artırmaq üçün mövsümü meyvə və tərəvəzlərə üstünlük verməliyik". Bu fikirləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Onun sözlərinə görə, gündə 4-5 porsiya tərəvəz, 2-3 porsiya meyvə istehlak etmək immunitet sistemimizi gücləndirir: "Xüsusilə yaşıl rəngli tərəvəzlər fol turşusu, kalium və C vitamini ilə çox zəngindir. Yağlı qidalardan bacardığımız qədər uzaq durmalıyıq. Qızartma və qovurma kimi yağlı qidalar əvəzinə soyutma üsulu ilə hazırlanmış qidalara üstünlük verməliyik.**

Meyvə qəbul edərkən həddi aşmamağa diqqət etməliyik. Sağlam qidalanıram deyərək bol-bol meyvə yeməyin. Çünki meyvənin tərkibindəki şəkər miqdarı çox olduğu üçün çəkinizin artımına səbəb ola bilər.

Un məmulatları əvəzinə südlü şirniyyatlar, meyvəli şirniyyatlar və ya qatqısız qaydasına uyğun hazırlanmış dondurma qəbul edə bilərsiniz. Yay aylarında isti olduğundan tər vasitəsilə çox maye itkisi baş verir.

Hər kq çəkiyə 30 ml maye qəbul etməyi unutmayaq. Gündəlik 2,5-3 litrə yaxın maye qəbul etmək sağlamlıq baxımından faydalıdır. Yay aylarında idmanla məşğul olanlar daha çox su qəbuluna diqqət etməlidir.

İstər yay, istərsə digər fəsillərdə olsun qazlı və rəngli içkilərdən imtina edin. Maye ehtiyacını qarşılamaq və sərinləmək üçün süd, ayran, mineral su, şəkərsiz limonad, soyuq bitki çayları, şəkərsiz kompot və təzə sıxılmış meyvə suyu qəbul edə bilərsiniz. Qəbul etdiyimiz qidaları sulu və qatı olmasına görə çox daha çox çeynəməyi unutmayaq. Doymaq hissi yemək yeyildikdən 15-20 dəqiqə sonra hiss edilməyə başlayır. Bu baxımdan yavaş-yavaş yemək yeməyə diqqət etməliyik.

Yaz və yay aylarında qida zəhərlənmələri daha çox müşahidə olunduğu üçün gigiyenaya diqqət edin.

Xüsusilə çöldə və açıq şəkildə satılan qidaları qəbul etməyin. Yüksək risk qrupuna aid süd və süd məhsulları, ət və ət məhsulları qəbul edərkən diqqətli olmalıyıq. Qidaların satın alınması, hazırlanması, bişirilməsi və saxlanması mərhələlərində gigiyenaya diqqət etməliyik".

***Abutel İlhamqızı***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**